www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 mart 2018-ci il Cümə axşamı № 59 (6948) Qiymәti 60 qәpik

**Xəbər**

## Bakıda bankomatdan pul çıxaran şəxsi soydular

yazısı səh.14-də

**Gündəm**

### Bakıda dünya liderlərinin iştirakı ilə nəhəng tədbir başlayır



Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini qəbul etdi; onlarla ölkənin prezidenti, baş naziri, nazirləri, elm adamları paytaxtımıza gəlib

yazısı səh.3-də

### ATƏT PA-nın müşahidə missiyasının prezidentliyə namizədlərlə 3 saatlıq görüşü

yazısı səh.3-də

### ABŞ-ın ikibaşlı davranışı - “Dağlıq Qarabağı” tanımır, amma Saakyanı qəbul edir...

yazısı səh.6-da

### Türkiyə Öcalanı Amerikadan hansı şərtlərlə alıb - Başbuğun dediklərinə reaksiyalar

yazısı səh.9-da

### “Demokratiya-qarşıdurma”, yoxsa “sabitlik-çörək” dilemması

yazısı səh.10-da

### ABŞ-ın Qarabağ “ədaləti” - Kremlə “ayı xidməti”

yazısı səh.11-də

### Ermənistanı ayaqda saxlayan müsəlman ölkəsi-Azərbaycan İranla necə davranmalı

yazısı səh.12-də

### Bayıl yamacında son durum: “...Adamı vahimə basır”

yazısı səh.13-də

### “Bitkoinin dəyəri yoxdur, balon hər an partlaya bilər”

yazısı səh.12-də

### Havanın qeyri-sabit keçməsi kənd təsərrüfatına ziyan vura bilərmi...

yazısı səh.15-də

# KREMLƏDƏN MÜTTƏFİQİNƏ TƏRS ŞİLLƏ - DÜŞMƏN ÖZ PAYTAXTINDA PƏRT EDİLDİ

**Rusiyanın yüksək çinli rəsmisi İrəvanda öz ölkəsinin Azərbaycana silah satışına bəraət verdi:** “Biz Bakı ilə silah müqavilələrinin şərtlərinə əməl etməyə borcluyuq...”




yazısı səh.8-də

## Hakimiyyətin sahibkarlara bağlı planı - ölkənin ən strateji sahəsində nələr baş verir...

Dövlət biznes üçün əlverişli şərtlər formalaşdırmaq üçün addımlar atır; iş adamları üçün daha ciddi dəstəyə ehtiyac var

yazısı səh.5-də



### Eldar Mahmudov məhkəmə hakimlərini şantaj edir-sensasion iddia

yazısı səh.4-də



*Həkim Vaqif Qarayev:*

### “Təbabəti az qalıb biznes poliqonuna çevirsinlər...”

yazısı səh.13-də



*Əli Həsənov:*

### “Vətənpərvərlik hissini itirmək dəhşətli milli faciədir...”

yazısı səh.7-də



## Xalq yazıçısı Anara Prezidentin Fəxri diplomu təqdim edildi

**Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı, görkəmli ədib, ictimai xadim Anarın 80 yaşı tamam olub. "Report"un məlumatına görə, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Yazıçılar Birliyində "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu yubilyara təqdim edib.**

Anarın şəxsiyyəti və yaradıcılığı haqqında söz açan Ə.Qarayev onu yubiley münasibətilə təbrik edib, cansağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzu edib. Xalq yazıçısının yaradıcılığından bəhs edən nazir onu həm nasir və dramaturq, həm də ictimai xadim kimi fenomen şəxsiyyət adlandırıb. Qeyd edib ki, Anar Azərbaycan ədəbiyyatının canlı tarixidir. Onun ədəbi və ictimai fəaliyyəti həmişə Azərbaycan dövlətçiliyinin, milliliyinin təbliğinə yönəlib. Buna görə də Xalq yazıçısının yubileyi nəinki Azərbaycanda, həmçinin ölkəmizin hüdudlarından kənarda geniş şəkildə qeyd ediləcək.

Görüşdə bir sıra təkliflər irəli sürülüb. Ə.Qarayev yaxın zamanda Göyçayda ədəbiyyat günlərinin keçirilməsini təklif edib.

Xalq yazıçısı dövlət başçısının onu təltif etməsinə və yubileyi münasibətilə təbrik məktubu ünvanlanmasına görə dərin minnətdarlığını ifadə edib.

Mərasimdə nazirin birinci müavini Vaqif Əliyev, Yazıçılar Birliyinin katibləri iştirak ediblər.

Xatırladaq ki, Prezident İlham Əliyev martın 13-də yazıçının Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Dövlət başçısı 80 illik yubiley münasibətilə Anara təbrik məktubu da ünvanlayıb.

## Azərbaycanda daha bir publik hüquqi şəxs yaradıldı

**Azərbaycan prezidenti İlham Əliyev elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında fərman imzalayıb.**

APA-nın məlumatına görə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə elektron hökumət sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirmək, dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirmək məqsədi ilə əlaqələndirici qurum funksiyalarını yerinə yetirmək, "Elektron hökumət" portalının idarə olunmasını və fəaliyyətini təmin etsin və təkmilləşdirilməsi ilə əlaqədar zəruri tədbirlər görmək, dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsini və elektron xidmətlərin göstərilməsini "elektron hökumət" portalı vasitəsilə təşkil etmək, elektron xidmətlərin, o cümlədən dövlət-biznes (G2B - government to business), biznes-dövlət (B2G - business to government) elektron xidmətlərinin inkişafı ilə bağlı tədbirlər görmək, habelə "Rəqəmsal hökumətə keçid üzrə Fəaliyyət Planı"nın layihəsini hazırlayıb Azərbaycan prezidentinə təqdim etmək tapşırılıb.

Fərmanın 1-ci hissəsində nəzərdə tutulan vəzifələrin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs yaradılacaq.

**"Elektron hökumət" portalı texniki-texnoloji infrastrukturu ilə birlikdə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin balansından Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin balansına veriləcək.**

# Beynəlxalq Bankın Müşahidə Şurasının tərkibi yeniləndi

**Martın 14-də "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçirilib.**





Bankdan APA-ya verilən məlumata görə, iclasa sədrlik edən **maliyyə naziri Samir Şərifov** bildirib ki, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin (ABB) dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2015-ci il tarixli 570 nömrəli fərmanına uyğun olaraq bankın sağlamlaşdırılması və restrukturizasiyası proqramı praktik olaraq başa çatıb.

**Nazir bildirib ki, bankın 2017-ci il üzrə maliyyə nəticələri müsbətdir:** "Şübhəsiz ki, bu müsbət nəticələrə dövlətin zəruri dəstəyi olmadan nail olmaq mümkün deyildi. ABB-nin uzunmüddətli maliyyə mövqeyinin bərpası və dayanıqlılığının təmin edilməsi, ölkə iqtisadiyyatını dəstəkləyən sağlam və güclü maliyyə institutuna çevrilməsi istiqamətində bir çox tədbirlər həyata keçirilib, bankın xarici kreditorlar qarşısında olan xarici valyutadakı borcunu dövlət öz üzərinə götürüb, bankın əmanətçilərinin, bankda xidmət olunan hüquqi şəxslərin və digər qeyri-rezidentlərin maraqlarını dövlət qoruyub. Bunun nəticəsidir ki, bankın kredit reytinqləri yüksəlməyə başlayıb".

Yeni fəaliyyət mərhələsinə qədəm qoymuş bankın idarə edilməsində bəzi dəyişikliklərlə bağlı iclasda bir sıra qərarlar qəbul olunub, Müşahidə Şurasının tərkibi yenidən formalaşdırılıb. Belə ki, Azərbaycan Respublikasının Dövlət Neft Fondunun İcraçı direktoru Şahmar Mövsümov bankın Müşahidə Şurasının sədri, maliyyə nazirinin müavini Emin Hüseynov, iqtisadiyyat nazirinin müavini Sahil Babayev və Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədri Xalid Əhədov Müşahidə Şurasının yeni üzvləri təyin olunub.

Bankın İdarə Heyətinin sədri vəzifəsinin müvəqqəti icrası isə bankın İdarə Heyəti sədrinin 1-ci müavini Abbas İbrahimova həvalə edilib.

**Səhmdarların ümumi yığıncağında Azərbaycan Beynəlxalq Bankının kənar auditor tərəfindən aparılmış müvafiq audit hesabatı da təsdiqlənib. Eyni zamanda, bankın bir sıra törəmə təşkilatlarının bağlanması barədə qərar qəbul olunub.**

## Böyük Britaniya Rusiya ilə əlaqələri dayandırıb, 23 rus diplomat ölkədən çıxarılır

**Böyük Britaniya hökuməti martın 4-də ölkə ərazisində - Solsberi şəhərində Rusiya Baş Kəşfiyyat İdarəsinin (QRU) keçmiş polkovniki Sergey Skripal və onun qızına qarşı əsəb-iflic qazı vasitəsilə həyata keçirilən hücumla bağlı Rusiyaya qarşı cavab addımlarını açıqlayıb.**



APA-nın xəbərinə görə, baş nazir Tereza Mey parlamentdə çıxışında bu tədbirləri elan edib.

O, Rusiyanın Britaniyadakı 23 diplomatını ölkədən çıxarmaq barədə qərar qəbul etdiklərini bildirib. O deyib ki, bu diplomatlar Rusiya kəşfiyyatının əməkdaşlarıdır və onlara ölkəni tərk etmək üçün 1 həftə vaxt verilir. "Rusiya bu iyrənc əmələ görə cavabdehdir. Biz onlara izahat üçün vaxt verdik, onlar bu məhlulun Böyük Britaniyaya necə düşdüyünü izah edə bilərdilər, lakin əvəzində sarkazmla reaksiya verdilər və ittihamları inkar etdilər. Heç bir şübhə yoxdur ki, Rusiya hökuməti cənab Skripala və onun qızına qarşı sui-qəsddə günahkardır", - deyə T.Mey söyləyib.

Baş nazir Rusiya ilə bütün ikitərəfli təmasları dayandırdıqlarını, xarici işlər naziri Sergey Lavrovun Britaniyaya səfəri ilə bağlı dəvəti geri götürdüklərini və bu ölkədə keçiriləcək dünya çempionatına heç bir hökumət nümayəndəsinin və kral ailəsi üzvlərinin qatılmayacağını bəyan edib: "Əvvəlki əlaqələr artıq mümkün deyil".

T.Mey sanksiyalarla bağlı qanunvericiliyə düzəlişlər təklif edəcəklərini söyləyib. O, hadisə barədə BMT və NATO-da məsələ qaldıracaqlarını də əlavə edib.

Qeyd edək ki, Sergey Skripal 1999-cu ilə qədər Rusiya Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsində (QRU) çalışıb. 2006-cı ildə Böyük Britaniyaya casusluq üstündə vətənə xəyanət ittihamı ilə həbs edilib və rütbədən məhrum olunub. 2010-cu ildə S. Skripal Rusiya və ABŞ arasında casus mübadiləsi çərçivəsində Britaniyaya göndərilib.

**Martın 12-də T.Mey parlamentdəki çıxışında S.Skripal və qızı Yuliyanın zəhərlənməsi barədə aparılan təhqiqata dair ilkin məlumatlar verib. Baş nazir bildirib ki, onlara qarşı SSRİ-də və Rusiyada hazırlanmış "Noviçok" adlı kimyəvi silah tətbiq edilib.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**



## İsa Qəmbər xəstəxanadan buraxıldı

**Milli Strateji Düşüncə Mərkəzinin sədri, Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər müalicə aldığı Türkiyənin paytaxtı Ankara şəhərindəki "Hacettepe" xəstəxanasından buraxılıb.**

"Report"un xəbərinə görə, İ.Qəmbərin səhhəti normaldır. Müsavatın sabiq başqanı bu həftənin sonunda Bakıya dönəcək.

Qeyd edək ki, yanvarın 13-də İ.Qəmbərin səhhətində problem yaranıb və Mərkəzi Klinikaya yerləşdirilib, onun ürəyinə stendlər qoyulub. İ.Qəmbər fevralın 23-də yenidən Mərkəzi Klinikaya aparılıb. Xəstəxanadan bildirilib ki, İ.Qəmbərin bu dəfə həkimə müraciət etməsi ürəyində yaranan problemlərlə bağlı deyil, o, ümumi stasionar şöbəyə yerləşdirilib. Daha sonra isə o, Müsavat Partiyasının başqanı Arif Hacılının və Mərkəzi Klinik Xəstəxananın həkiminin müşayiəti ilə Türkiyənin paytaxtı Ankara şəhərindəki "Hacettepe" xəstəxanasına yerləşdirilib.

İsa Qəmbərin xəstəxanadan buraxılandan sonra ilk fotosu yayılıb. Fotolardan birini TRT-də çalışan həmyerlimiz, jurnalist Könül Şamilqızı, digərini isə Türkiyədəki Azərbaycan diasporunun üzvləri yayıb.

Şəkillərdə İsa Qəmbərin sağlıq durumunun yaxşı olduğu görünür.

## Ən xoşbəxt 10 ölkə

**Finlandiya BMT-nin yeni hesabatında dünyanın ən xoşbəxt ölkəsi seçilib. Novator.az-ın məlumatına görə, 156 ölkəni əhatə edən hesabat ömür uzunluğu, sosial dəstək, korrupsiya həddi və başqa meyarlara əsaslanır.**

İlk onluqda Norveç, Danimarka, İslandiya, İsveçrə, Niderland, Kanada, Yeni Zelandiya, İsveç və Avstraliya da yer alır.

BMT xoşbəxt ölkələr reytinqini 2012-ci ildən tərtib edib. Keçənilki hesabatda Norveç birinci idi.

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

# Bakıda dünya liderlərinin iştirakı ilə nəhəng tədbir başlayır

## Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul etdi; onlarla ölkənin prezidenti, baş naziri, nazirləri, elm adamları paytaxtımıza gəlib; Türkiyənin baş nazirindən önəmli mesajlar

**Azərbaycan paytaxtı bu həftənin sonunadək daha bir beynəlxalq tədbirə ev sahibliyi edəcək. Martın 15-dən 18-dək Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) təşkilatçılığı ilə VI illik Qlobal forum keçiriləcək.**

Martın 14-də Azərbaycan prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib. Bu barədə Prezidentin mətbuat xidməti məlumat yayıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, forumun işində, həmişə olduğu kimi, dünya liderləri, hazırda vəzifədə olan və sabiq prezidentlər, baş nazirlər və xarici işlər nazirləri, həmçinin nüfuzlu ictimai xadimlər və siyasətçilər iştirak edəcəklər. Onların arasında Albaniya, Makedoniya və Moldova prezidentləri - İlir Meta, Qeorqe İvanov və İqor Dodon, Bosniya və Herseqovina Ali Şurası Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin baş naziri və Xarici İşlər Nazirliyinin başçısı - Binali Yıldırım və Mövlud Çavuşoqlu, Fələstin baş nazirinin müavini Ziad Əbu Əmr, Bosniya və Herseqovina baş nazirinin müavini Mirko Şaroviç, Rumıniya baş nazirinin müavini Ana Birçall və başqaları var. Tədbirdə bütövlükdə təxminən 500 qonağın iştirakı gözlənilir.

Açılış mərasimində İtaliya prezidenti Sercio Matarellinin, Böyük Britaniyanın baş naziri Tereza Meyin və BMT-nin baş katibi Antoniu Quterrişin müraciətləri oxunacaq. "İnklüziv cəmiyyətlərin yaradılması üçün ziddiyyətlərin eyniləşdirilməsi" probleminə həsr ediləcək forumda dünyada və Yaxın Şərqdə təhlükəsizlik, Balkan regionunda mövcud geosiyasi vəziyyət, ictimai-siyasi həyatda gənclərin artan rolu və başqa məsələlər müzakirə ediləcək.

Virtualaz.org-un xəbərinə görə, Forumun panel müzakirələrində Azərbaycan prezidentinin xarici siyasət və ictimai-siyasi məsələlər üzrə köməkçiləri Novruz Məmmədov, Əli Həsənovun, baş nazirin müavini Əli Həsənovun, həmçinin xarici işlər naziri Elmar Məmmədyarovun çıxışları gözlənilir.

Forum çərçivəsində Azərbaycanın dahi şairi Nizami Gəncəviyə həsr olunan beynəlxalq elmi konfrans təşkil ediləcək. "Nizami mədəni irsinin müasir dövrdə interpretasiyası" adlı konfrans Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının birgə əməkdaşlığı ilə təşkil olunacaq.

Konfransda ABŞ, Kanada, Braziliya, Hindistan, Misir, Gürcüstan, Türkiyə, Almaniya, İtaliya, Fransa, Böyük Britaniya, İran, Finlandiyadan 20-dən çox alimin, eləcə də 30-dan çox azərbaycanlı elm adamının, nizamişünasların iştirakı gözlənilir.

Martın 18-19-da isə VII Beynəlxalq Kitab Sammiti təşkil olunacaq. ABŞ Konqres kitabxanası və Misirin İsgəndəriyyə kitabxanasının birgə təşəbbüsü ilə keçiriləcək ənənəvi Kitab Sammitində milli irsin qorunmasında və ötürülməsində, gələcəyin formalaşmasında kitabın əhəmiyyəti, eləcə də milli kitabxanaların rolu, onların gələcəyi müzakirə olunacaq.

Sammitdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri, Mavriki və Makedoniya respublikalarının prezidentləri, ABŞ Konqresi kitabxanasının nümayəndəsi, Çin, Bolqarıstan, Latviya, Azərbaycan, Misir, Mərakeş və digər ölkələrin milli kitabxanalarının rəhbərləri, ziyalılar iştirak edəcəklər.

Martın 14-də Türkiyənin baş naziri Binəli Yıldırım Azərbaycana gəlib. APA-nın xəbərinə görə, Heydər Əliyev Beynəlxalq Aeroportunda B. Yıldırımı xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və digər şəxslər qarşılayıblar. B.Yıldırımla birgə xanımı Semiha Yıldırım, Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin müavini Mehdi Eker, Türkiyə-Azərbaycan parlamentlərarası Dostluq qrupunun rəhbəri Necdet Ünüvar, Milliyyətçi Hərəkat Partiyasından deputat Ekmeleddin İhsanoğlu, Türkiyə Böyük Millət Məclisinin keçmiş sədri Hikmet Çetin və digər şəxslər də Azərbaycana gəlib.

**Azərbaycan Prezidenti İlham Əliyev martın 14-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə görüşüb. ("Report") Prezident İlham Əliyev Baş nazir Binəli Yıldırımı qarşılayıb, sonra birgə foto çəkdirilib. Görüşdən sonra prezident İlham Əliyev və Baş nazir Binəli Yıldırım birgə nahar ediblər.**

"Hər kim nə deyir desin, Nizami Gəncəvi Azərbaycan türküdür". "Report" xəbər verir ki, bunu Türkiyənin baş naziri Binəli Yıldırım Milli Məclisdə parlament sədri Oqtay Əsədovla keçirdiyi görüş zamanı deyib.

"Nizami Gəncəvi 13-cü əsrdə yaşamış dahi şəxsiyyətdir, Azərbaycan türküdür. Hər nə qədər bəziləri ona sahib çıxmaq istəsə də, gerçək budur ki, Nizami Gəncəvi Gəncədə doğulub, Gəncədə yaşayıb və Gəncədə vəfat edib. Onun "Xəmsə"si bu gün dünya elm adamlarına, şairlərinə bir nümunədir. Belə bir dahi şəxsin adına beynəlxalq tədbirin təşkil olunmasını alqışlayıram. Ona görə də bu tədbirdə iştirak etmək istədim", - deyə baş nazir vurğulayıb.

"Güclü Türkiyə və güclü Azərbaycan bölgənin təhlükəsizliyinin təminatçısı olacaq". Bunu da qardaş ölkənin Baş naziri deyib. B.Yıldırım O.Əsədovla görüşdə Qarabağdan da danışıb. "Azərbaycanın Dağlıq Qarabağ məsələsi, təəssüf ki, qanayan bir yaradır. Bunun bir zaman düzələcəyinə əminəm. Türkiyə hər zaman Azərbaycanın yanındadır", - deyə B.Yıldırım əlavə edib.

**Nüfuzlu beynəlxalq tədbirin təşkilatçılarının da forumdan gözləntiləri böyükdür.** "Bakıda keçiriləcək VI Qlobal Forum Azərbaycana qarşı indiyə qədər dünya miqyasında üzdəniraq düşmənlərin apardığı qarayaxma kampaniyasını alt-üst edəcək, bura gələn dünya miqyaslı liderlər Azərbaycanla bağlı ən xoş təəssüratla ayrılacaqlar". APA-nın məlumatına görə, bunu Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov bildirib. Komitə sədri qeyd edib ki, foruma dünyanın tanınmış simaları, siyasətçiləri toplaşır və maraqlı mövzular ətrafında müzakirələr aparılacaq: "Buradan ayrılan dünya liderləri qarayaxma kampaniyasının əksinə olaraq Azərbaycanın demokratik, inkişaf etmiş nümunəvi ölkə olması təəssüratı ilə ayrılıb dünyada təbliğ edəcəklər. Ən əsası da odur ki, biz burada dahi Azərbaycan şairi Nizami Gəncəvini Sovet dövründəki təbliğatdan fərqli formada təqdim edəcəyik. Onun eyni zamanda siyasətçi, dövrünün böyük ictimai xadim olduğu da təbliğ ediləcək".





**Nazim İbrahimov:** "VI Qlobal Forum Azərbaycana qarşı indiyə qədər dünya miqyasında üzdəniraq düşmənlərin apardığı qarayaxma kampaniyasını alt-üst edəcək"

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**



Tural Abbaslı

# ATƏT PA-nın müşahidə missiyasının prezidentliyə namizədlərlə 3 saatlıq görüşü

## Tural Abbaslı: "Müxtəlif siyasi qütblərin təmsilçiləri bir-birinə qarşı dözümlü oldular və siyasi etiketə uyğun olaraq hörmətlə yanaşıldı"

**ATƏT Parlament Assambleyasının (PA) Azərbaycanda prezident seçkisi ilə bağlı qısamüddətli müşahidə missiyasının koordinatoru Nilza Sena (Portuqaliya) Azərbaycanda prezidentliyə namizədlərlə görüşüb.**

Görüşdə prezidentliyə qeydə alınan namizəd İlham Əliyevin səlahiyyətli nümayəndəsi Siyavuş Novruzov, prezidentliyə qeydə alınan namizəd Qüdrət Həsənquliyevin səlahiyyətli nümayəndəsi Elçin Mirzəbəyli, prezidentliyə qeydə alınan namizəd Araz Əlizadə, prezidentliyə qeydə alınan namizəd Fərəc Quliyev, prezidentliyə qeydə alınan namizəd Razi Nurullayev, prezidentliyə qeydə alınan namizəd Zahid Oruc, prezidentliyə qeydə alınan namizəd Hafiz Hacıyev, prezidentliyə iddialılar Əli Əliyev, Sərdar Cəlaloğlu və Tural Abbaslı iştirak ediblər.

Prezidentliyə namizədliyi irəli sürülən Tural Abbaslı "Yeni Müsavat"a bildirib ki, görüşdə Azərbaycandakı seçki vəziyyəti müzakirə olunub, bu istiqamətdə fikir mübadiləsi aparılıb: "Görüş normal keçdi. Əsas müzakirələr missiya təmsilçisinin sualları ətrafında getdi. Koordinator Azərbaycandakı seçki mühiti ilə bağlı fikirlərimizi soruşdu, bu istiqamətdə müzakirələr apardıq. Hər kəs çox sərbəst və rahat şəkildə öz fikirlərini səsləndirdi. Sevindirici hal o oldu ki, müxtəlif siyasi qütblərin təmsilçiləri bir-birlərinə qarşı dözümlü oldular və siyasi etiketə uyğun olaraq hörmətlə yanaşıldı. Hətta konfliktli məsələlərin müzakirəsi zamanı da etiket qaydaları pozulmadı. Ümid edirəm ki, qeydə alınsaq televiziya debatları da bu səviyyədə qarşılıqlı hörmət və dözümlülük şəraitində keçər. Siyasətdə təhqirlərin yeri olmamalıdır.

Ümumiyyətlə isə mən orada missiyanın rəhbəri Nilza Senaya bildirdim ki, biz AĞ partiya olaraq nə ATƏT-ə, nə digər müşahidə aparacaq beynəlxalq qurumların səmimiliyinə və obyektivliyinə inanmıram. Onlar adətən hər seçkiləri "demokratiyaya doğru növbəti addım" kimi qiymətləndirirlər. Həmçinin müşahidə aparmağa gələcək nümayəndələrin Azərbaycan Seçki Məcəlləsi və seçki reallıqlarından xəbərsiz olmalarını da rəhbərin nəzərinə çatdırdım. Koordinator isə bildirdi ki, seçkilərin müşahidəsi obyektiv şəkildə həyata keçiriləcək. Sonra xanım Senanın sualları ətrafında namizədlərin fikirləri dinlənildi. Suallar əsasən seçkinin vaxtının dəyişdirilməsi, hazırkı seçkilərdəki müsbət və mənfi tərəflər, namizədlər üçün pulsuz edir vaxtı, imzatoplama mərhələsindəki problemlər və s. əhatə edirdi. Görüş 3 saata yaxın davam etdi. Mən bu görüşü seçki öncəsi mühitin öyrənilməsi baxımından faydalı hesab edirəm".

Qeyd edək ki, hazırda prezidentliyə 7 namizəd MSK tərəfindən qeydə alınıb. Tural Abbaslı, Əli Əliyev və Sərdar Cəlaloğlunun isə sənədləri MSK-dadır. MSK onların qeydə alınıb-alınmaması ilə bağlı yaxın günlərdə qərar verəcək.

**Namizədlər üçün təbliğat-təşviqat kampaniyası isə seçki təqviminə görə, martın 19-da səhər saat 8-dən start götürəcək. Namizədlərə İctimai TV və radioda ödənişsiz efir vaxtının ayrılması nəzərdə tutulur. Efir vaxtının müddəti isə hələlik bəlli deyil. Namizədlərin sayı dəqiqləşdikdən sonra bu məsələyə də aydınlıq gələcək.**

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**Ləğv edilmiş MTN-in sabiq baş idarə və idarə rəisləri, generallar Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mirvətova, həmin qurumun vəzifəli şəxsləri Fizuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir. Prosesdə çıxışlar mərhələsi başa çatıb və son söz mərhələsinə başlanılıb. Hazırda təqsirləndirilən şəxslər son sözlə çıxış edir.**

# Eldar Mahmudov məhkəmə hakimlərini şantaj edir-sensasion iddia

## Prezidentliyə namizəd: "O, hakimlərin aldığı rüşvətlər hesabına alınan mülklər, maşınlar, torpaq sahələri haqda məlumatlıdır"



2015-ci ilin oktyabrında Eldar Mahmudovun vəzifəsindən uzaqlaşdırılması ilə başlanan proses məhkəmə müstəvisində yekunlaşmaq üzrədir. Eldar Mahmudovun generalları, onun tapşırıqlarının sözsüz icraçıları olan əlaltıları məhkəmə qarşısındadırlar. Sabiq nazirin özü isə istintaqdan, məhkəmədən kənardır. "MTN işi" üzrə məhkəmə proseslərini izləyənlərdə məntiqi sonluğun baş verməyəcəyinə əminlik hər ötən gün artmaqdır. Müşahidələr də göstərir ki, bu əminliyin formalaşmasını şərtləndirən amillər illüziya deyil, tam bir gerçəklikdir. Eldar Mahmudov nazir postunu itirsə də, zəifləmiş duruma gətirilsə də, özünü qorumaq gücündədir. O, həbsdə olan, azadlıqda qalan, bu gün də vəzifə daşıyan komanda üzvlərini hələ də idarə edir, onlara təsir imkanları saxlayır. Sanki Eldar Mahmudov məhkəmədə hakimlərlə hazırda dəmir qəfəsdə olan əlaltılarının arasında dayanıb, komanda üzvlərinin əməllərinə adekvat cəzaların verilməsini əngəllyir.

**Prezidentliyə namizəd Hafiz Hacıyev** deyir ki, belə bir durumun yaranmasının səbəbi bu gün Azərbaycan məhkəmələrində sifariş yerinə yetirənlər dəstəsinin yaranmasıdır: "Bu yaxınlarda mətbuat yazdı ki, Eldar Mahmudov "Nəbatat bağı"nda məhkəmə sədri ilə görüşüb 1 saat müddətində söhbət ediblər. Bu ondan xəbər verir ki, məhkəmələrin də böyük cinayətləri var və Eldar Mahmudovun əlində həmin cinayətlərlə bağlı məlumatlar var. Ona görə də Eldar Mahmudovdan qorxurlar. Onun ətrafından 20-yə yaxın şəxsi tutublar. Aralarından özünü asan da oldu. Sual ortaya çıxır - belə bir halda Eldar Mahmudovun özü niyə azadlıqda qalmalıdır? Onun xaricdə də bəzi dəstələri maliyyələşdirməsi xəbəri var. Bütün bunların araşdırılmasında, yaranan suallara cavab verilməsində hakimiyyət özü maraqlı olmalıdır. Bu işin üstü tam açılmalıdır. Necə ola bilər ki, rəhbər dağıdıb yesin, ətrafını tutsunlar, özü isə ortalıqda gəzib məhkəmə sədri ilə görüşür. Üstəlik, orda-burda xəbər yayır ki, hakimiyyətə gəlirəm. Onun hakimiyyətə gəlməsi yolverilməz və qorxulu bir haldır. Onun işçilərinə münasibətdə məhkəmələrin belə humanist olması səbəbsiz deyil. Sahibkarların var-yoxunu əlindən alıb qabaqlarına keçənin evini yıxıblar. Ölkə banklarını talan ediblər. Kimi istəyiblər izləyiblər, kimi də istəyiblər dinləyiblər. Bütün bunlar qanunsuz olub və şəxsi maraqlara xidmət edib. Dövlətin maraqlarına ciddi zərbə vurublar. Prezident siyasi iradə ortaya qoyub MTN-in altının-üstünə çevrilməsinə ona görə qərar verməyib ki, bu gün hakimlər Eldar Mahmudovun dəstə üzvlərinə 3-5 il cəza verib azadlığa buraxsınlar".

**Hafiz Hacıyev deyir ki, Eldar Mahmudov hakimiyyətə gəlməsi ilə bağlı şayiə yaymaqla hakimlərə təsir edir:** "Hakimlər düşünürlər ki, Eldar Mahmudov birdən hakimiyyətə gələr, evimiz yıxılar. Ona görə də bu gün də ona xidmət etməkdən çəkinmirlər. Necə olur ki, sıravı bir vətəndaşın səhvi ucbatından törətdiyi cinayətə görə ona 10-15 il cəza verirlər, Eldar Mahmudovun qanunsuz əmrlərini yerinə yetirib milləti zəlil gününə qoyanların cəzası 4-5 illə məhdudlaşır? Bu adamlar 2 ildən artıqdır ki, həbsdədirlər, səhər cəzalarının çəkilmiş hissəsi ilə kifayətlənib azad edilmələri ilə bağlı müraciət edəcəklər. Və onları məhkəmə azad edəcək. Bu ədalət məhkəməsidir? Bu adamlar nazir deməyiblər, komitə sədri deməyiblər, iş adamı deməyiblər, hər kəsi özlərinə tabe etdirib haqq alıblar. Onlara belə yüngül cəzaların verilməsi ilə qətiyyən razılaşmaq olmaz!"

**H.Hacıyev Azərbaycanda məhkəmələrin qanun çərçivəsində fəaliyyət göstərmədiklərini deyib:** "Məhkəmələrin müstəqil olması ilə bağlı deyilənlərlə razı deyiləm. Məhkəmələr qanunsuz işlər gördüklərindən Eldar Mahmudov kimi eks-məmurlardan belə qorxurlar. Düşünürlər ki, qanunsuz işlərini çıxarıb ortaya qoya bilərlər. Düşünürəm ki, bu insanların hamısı vəzifədən getməlidirlər. Eldar Mahmudov Azərbaycandan kifayət qədər böyük pullar çıxara bilib. Ona görə də ölkədə istədiyini edə bilir. Hakimlərin aldığı rüşvətlər, həmin rüşvət hesabına alınan mülkləri, maşınları, torpaq sahələri haqda məlumatlıdır. Hakimlərin kiminlə, harada olmaları haqda xəbəri var. Ona görə də hakim dəstəsi onun qarşısında gözü kölgəlidir. Qorxurlar ki, birdən onlara qarşı kompromatlar ortaya çıxar. Necə ki, başqalarını kompromatlarla şantaj edir, hakimləri də həmin qaydada şantaj edib nəzarətdə saxlaya bilir".

**Hafiz Hacıyev bildirir ki, Eldar Mahmudov şantajla onun komandasının üzvləri olmuş şəxsləri azadlığa çıxara biləcək:** "Özü şantajla azadlıqda qala bildi. İndi də həmin yolla onun dəstəsində olanların çölə çıxarılması üçün işləyir. Onun məhkəmə sədri ilə görüşü başqa niyə görə ola bilər? Əslində məhkəmələrdə verilən ifadələr Eldar Mahmudovun özünün içəri atılması üçün kifayət edir. Onun çöldə qalması yaxşı nəticə verməyəcək".

**Hafiz Hacıyev ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) istintaq idarəsinin həbsdə olan sabiq şöbə rəisi polkovnik Vüsal Ələkbərovun cəzasının 12 ildən 5 ilə endirilməsində də Eldar Mahmudovun barmağının olmasını istisna etmir:** "Vüsal Ələkbərovun məhkəməsində Eldar Mahmudov və Mövlam Şıxəliyev barəsində xüsusi qərardad çıxarıldı. Hara getdi həmin xüsusi qərardad? Niyə həmin xüsusi qərardadla bağlı heç bir hərəkətlilik yoxdur? Eldar Mahmudovun xofu bu məmurların canından çıxmayıb. Onları işdən uzaqlaşdırıb başqaları ilə əvəzləmək lazımdır. Başqa cür Eldar Mahmudovla, onun dəstəsinin üzvləri ilə bacarmayacaqlar".

Xatırladaq ki, MTN-dəki əməliyyatdan az sonra Baş Prokurorluğun yaydığı rəsmi məlumatdan aydın oldu ki, "MTN işi" üzrə 22 şəxs təqsirləndirilən şəxs qismində cəlb edilib, onlardan 20 şəxs barəsində həbs qətimkan tədbiri və 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilməklə istintaqdan yayınan 1 şəxs barəsində həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilib. Cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərər çəkmiş şəxs qismində tanınmışdılar.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Bakı region ölkələrini bir araya toplayır

## Üçtərəfli, ardınca dördtərəfli zirvə görüşləri-düşmən təklənmiş durumda




**Bakıda Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin 14 mart görüşünün ardınca dördtərəfli formatda daha bir görüş keçiriləcək. Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov, Türkiyə xarici işlər naziri Mövlüd Çavuşoğlu, İran xarici işlər naziri Məhəmməd Cavad Zərif, Gürcüstan baş nazirinin müavini, xarici işlər naziri Mixeil Canelidzenin iştirakı ilə nəzərdə tutulan birinci dördtərəfli görüşə də maraq kifayət qədər böyükdür.**

Azərbaycan, İran, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin dördtərəfli görüşünün təşəbbüskarı Azərbaycan Xarici İşlər Nazirliyidir. Üçtərəfli görüşün ardınca dördtərəfli görüşə ev sahibliyi edən ölkəmiz təbii olaraq maraq dairəsindədir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a şərhində qeyd etdi ki, rəsmi Bakının belə bir görüşə ehtiyac duymasının bir neçə səbəbi ola bilər: "Birincisi, rəsmi Bakı bu toplantı ilə balanslaşdırılmış xarici siyasətini bir az daha gücləndirmək istəyir. Türkiyə Azərbaycanın strateji müttəfiqi, Gürcüstan strateji tərəfdaşı, İran isə tərəfdaşıdır. Azərbaycanın bu 3 ölkənin hər biri ilə müxtəlif ortaq layihələri var. Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum, TANAP boru xətləri, o cümlədən Bakı-Tiflis-Qars dəmir yolu bölgədə Azərbaycan-Gürcüstan-Türkiyə birliyi yaradıb. Bundan başqa Azərbaycanla Türkiyənin Gürcüstana böyük yatırımları var. Digər tərəfdən şimal-cənub nəqliyyat marşrutu da Azərbaycanla İranı dəmir yolu ilə birləşdirir. Yəni Azərbaycan qonşu dövlətlərlə münasibətlərdə regional layihələrə önəm verir. Ortada bu layihələr varkən bu 4 dövlətin siyasi müstəvidə də əməkdaşlığının genişlənməsinə ehtiyac var. İkincisi, Azərbaycan Ermənistanın iqtisadi blokadasını gücləndirir. Azərbaycanın qonşu dövlətlərlə reallaşdırdığı bütün layihələr Ermənistandan yan keçir. Ermənistan bütün regional layihələrdən məhrumdur. Bakıda keçiriləcək dörd ölkənin xarici işlər nazirlərini görüşü Ermənistanın iqtisadi və siyasi blokadasını gücləndirməlidir".

Ekspertin fikrincə, doğrudur, Türkiyədən fərqli olaraq, Gürcüstanın və İranın Ermənistanla siyasi və iqtisadi təmasları var. Ancaq Gürcüstan və İran Ermənistanla böyük iqtisadi layihələr reallaşdıra bilmirlər: "Çünki Ermənistanın iqtisadi potensialı yoxdur. Rəsmi Bakı bu faktordan da istifadə edir. Üçüncüsü, Azərbaycan müxtəlif üçtərəfli formatların əsasını qoyub: Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Türkmənistan, Azərbaycan-Türkiyə-İran. Hazırda 4 dövlətin xarici işlər nazirinin Bakıdakı görüşü yeni regional formatın əsasını qoya bilər. Ermənistanın iştirakı ilə heç bir üçtərəfli və ya dördtərəfli format yoxdur. Bu da rəsmi Bakının xarici siyasətinin uğuru sayıla bilər. Cənubi Qafqazda ATƏT-ə bənzər təşkilatın formalaşması ideyası Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirələ məxsusdur. Süleyman Dəmirəl 1990-cı illərin əvvəllərində Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının yaradılmasını təklif etmişdi. Bu format 3+3 şəklində olmalı idi. Yəni Azərbaycan, Gürcüstan, Ermənistan, Rusiya, Türkiyə və İran. Azərbaycan hakimiyyəti Bakıdakı görüşdə Rusiyanın xarici işlər nazirinin də iştirakını arzulayırdı. Ancaq problem bundadır ki, Gürcüstanla Rusiya arasında diplomatik münasibətlər yoxdur və iki ölkənin rəsmiləri bir-birləriylə görüşmürlər. Beləliklə, Bakıda ilk dəfə 4 dövlətin xarici işlər nazirləri görüşəcəklər. Görüşün yekunu olaraq xarici işlər nazirləri yekun bəyanat qəbul edəcəklər. Rəsmi Bakı həmin bəyanatda 3 qonşu dövlətin xarici işlər nazirlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədikləri maddəsini salmağa çalışacaq. Bəyanatda o da yer ala bilər ki, əgər Ermənistan Azərbaycan torpaqlarını boşaldarsa, onun da həm regional layihələrə, həm də yeni formata qoşulması imkanı var".

"Azərbaycan, Türkiyə, İran və Gürcüstan xarici işlər nazirlərinin birinci dördtərəfli görüşü regionda təhlükəsizlik və sabitliyin təmin edilməsinə, ölkələr arasında iqtisadi əlaqələrin inkişafına təkan verəcək". APA-nın Tehran bürosunun məlumatına görə, bunu **İran Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasımi** İran xarici işlər naziri Məhəmməd Cavad Zərifin Bakıya səfərini şərh edərkən deyib. "Ümid edirəm ki, bu təşəbbüs ölkələrin mənafelərini təmin edəcək. Biz bu əməkdaşlığın regionun digər xalqları arasında dinc yaşayışın təmin edilməsinə töhfə verəcəyinə inanırıq. Bu iclasda dörd ölkəni maraqlandıran siyasi məsələlər, o cümlədən regiondakı vəziyyət, qanunsuz narkotik dövriyyəsi ilə mübarizə, regional təhlükəsizlik, ölkələr arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi müzakirə olunacaq".

❑ **Cavìd TURAN,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

# Hakimiyyətin sahibkarlara bağlı planı - ölkənin ən strateji sahəsində nələr baş verir...

## Dövlət biznes üçün əlverişli şərtlər formalaşdırmaq üçün addımlar atır; iş adamları üçün daha ciddi dəstəyə ehtiyac var

**Azərbaycanda sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir. Bu siyasət, eyni zamanda, iqtisadiyyatın bütün sahələrində işgüzar fəaliyyət üçün normativ-hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsinin yüksəldilməsinə yönəldilir. Bununla yanaşı, davamlı iqtisadi inkişafın reallaşdırılması baxımından kiçik və orta sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərinin həllində onların rolunun gücləndirilməsi nəzərdə tutulur.**

Qlobal və regional səviyyədə mürəkkəb siyasi-iqtisadi proseslərin hökm sürdüyü, iqtisadiyyata xarici neqativ təsirlərin gücləndiyi indiki şəraitdə sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı Azərbaycanda reallaşdırılan sistemli tədbirlər mühüm önəm daşıyır. Bu baxımdan iqtisadi islahatlar paketi çərçivəsində son illərdə sahibkarlığın inkişafı ilə bağlı imzalanan mühüm sənədlər strateji əhəmiyyət kəsb edir.

**Sahibkarlar yoxlanmır**

Dövlət başçısının özünün də qeyd etdiyi kimi, sahibkarlığın inkişafı Azərbaycanın ümumi tərəqqisinin əsas şərtidir. Ona görə də iş adamlarına maksimum sərbəstlik verilməlidir və verilir. Son vaxtlar qəbul edilən qərarlar, imzalanan qanun və sərəncamlar sahibkarlığın inkişafında nəzərə çarpan süni əngəllərin aradan qaldırılması, sahibkarların maksimum dərəcədə sərbəst, rahat şəraitdə işləmələri və Azərbaycanda biznes mühitinin daha da yaxşılaşması məqsədi daşıyır. Bu sırada müxtəlif dövlət orqanları tərəfindən sahibkarlıq subyektlərinin yoxlanmasını qadağan edən qanunun qəbulunu xüsusi qeyd etməyə dəyər. 2016-cı ildən qüvvəyə minən qanunun müddəti ötən ilin noyabrında daha 4 illiyə uzadılıb. Bu qanun sahibkarlara sanki yeni nəfəs verdi. Qanunun icrası nəticəsində yoxlamaların sayı 50 dəfədən çox azalıb.

Onu da qeyd edək ki, yoxlamalar dayandığı müddətdə vergi orqanları tərəfindən sahibkarların sıxışdırılması halları çoxalmışdı. Biznesin bu problemlə bağlı narazılıqları dövlət rəhbərliyi tərəfindən nəzərə alındı, vergilər naziri Fazil Məmmədov vəzifəsindən uzaqlaşdırıldı. Vergilər naziri təyin olunan Mikayıl Cabbarov sahibkarları incidən, fəaliyyətinə əngəl yaradan vergi əməkdaşlarını işdən azad etdi, eyni zamanda bizneslə vergi orqanları arasında tamamən yeni münasibətlərin əsası qoyuldu. Qarşılıqlı və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanan, vergi orqanlarını sahibkarların dostu statusuna gətirməyə hesablanmış bu münasibətlər artıq bəhrəsini verməkdədir: heç bir təzyiq, sıxışdırma olmadan yanvar-fevral ayları üzrə vergi proqnozuna artıqlaması ilə əməl olunub.



Bundan əlavə, cəmiyyətin bütün təbəqələrinin rəyləri nəzərə alınmaqla, Azərbaycanın vergi qanunvericiliyinə dəyişikliklər paketi hazırlanmaqdadır. Bu dəyişikliklərin əsasən sahibkarlığın inkişafını stimullaşdırmağa yönəlməsi nəzərdə tutulur.

Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə 2020-ci ilədək olan müddətdə Azərbaycanda kiçik və orta sahibkarlığın (KOS) inkişafı üçün biznes mühitinin daha da təkmilləşdirilməsi və maliyyə vəsaitlərinə və satış bazarlarına çıxışın asanlaşdırılması, biznes bilik və bacarıqların artırılması ilə rəqabətqabiliyyətliliyinin təmin olunması hədəflənir. Bununla yanaşı, KOS subyektlərinə münasibətdə maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsi istiqamətində də fəaliyyət göstəriləcək.

**Strateji Yol Xəritəsində müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün təxminən 700 milyon manat investisiya tələb olunur ki, nəticədə 2020-ci ildə iqtisadiyyatda təxminən 1 milyard 260 milyon manat əlavə dəyərin yaradılması gözlənilir.**

Strateji Yol Xəritəsi imzalanandan bəri onda nəzərdə tutulan tədbirlərin icrası istiqamətində mühüm addımlar atılıb. İxrac prosedurları sadələşdirilib, ixracın stimullaşdırılması məqsədilə sahibkarlara ixrac təşviqi sənədinin verilməsi təmin olunub. Bundan əlavə, prezidentin imzaladığı "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Fərmanla İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu "Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi" yaradılıb. Agentlik ölkədə kiçik və orta sahibkarlığın (KOS) inkişafını dəstəkləyən, KOS subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirən publik hüquqi şəxsdir. Agentliyin tərkibində ölkənin iri rayon və şəhərlərində kiçik və orta sahibkarlara bir sıra xidmətləri (təlim, məsləhət, informasiya, biznes-inkubator, innovasiya mərkəzi, maliyyə xidmətləri və s.) bir məkanda təklif edən "Kiçik və orta sahibkarlıq evi" yaradılacaq və onların fəaliyyəti "ASAN xidmət" mərkəzləri, "ASAN xidmət" mərkəzləri olmayan regionlarda isə İqtisadiyyat Nazirliyinin regional bölmələri vasitəsilə həyata keçiriləcək.

**Borclar silinir**

Ölkədə sahibkarların problemlərinin həllinə yönəlmiş mühüm addımlardan biri ötən il vergi borclarına görə yaranan faizlərin silinməsi məqsədilə elan edilmiş amnistiyadır. Amnistiya nəticəsində ötən il 154279 vergi ödəyicisinin 2 milyard 285 milyon 354,8 min manat məbləğində borcu ləğv edilib.

Bu sahədə son addımlardan biri də "Məcburi dövlət sosial sığorta sahəsində borcların tənzimlənməsi haqqında" qanundur. Qanunla 2006-cı ilin 1 yanvar tarixinə yaranmış və bu ilin aprelin 1-ə qədər ödənilməmiş sosial sığorta borclarının, eləcə də 2015-ci ilin 1 yanvar tarixinədək yaranmış maliyyə sanksiyaları silinəcək.

Qeyd edək ki, ölkə üzrə sığortaedənlərin 12 il ərzində ödənilməmiş məcburi dövlət sosial sığorta haqları üzrə borcun məbləği 100,2 milyon manat təşkil edir. Bundan əlavə, qanun layihəsi ilə sığortaedənlərin mövcud olan məcburi dövlət sosial haqları və məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları (hesablanmış penya) üzrə borclarının 155,3 milyon manat hissəsinin silinməsi, 26,7 milyon manat hissəsinin isə tənzimlənməsi nəzərdə tutulur. Nəticə etibarilə, "Məcburi dövlət sosial sığorta sahəsində borcların tənzimlənməsi haqqında" Qanun layihəsi ilə 373,7 min sığortaedənin, o cümlədən 217 min sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin məcburi dövlət sosial sığortası üzrə borcları tənzimlənəcəkdir.

**Beynəlxalq hesabatlarda mövqeyimiz yüksəlir**

Ölkədə sahibkarlığın inkişafı onun rəqabət qabiliyyətinin artırılması istiqamətində dövlət tənzimləməsinin təkmilləşdirilməsini, biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılmasını, ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun daha da cəlbedici biznes və investisiya mühitinin formalaşdırılmasını, mütərəqqi tənzimləmə və hüquqtətbiqetmə praktikasına nail olunmasını zəruri edir.

Bu zərurəti nəzərə alaraq dövlət başçısı ölkənin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, sahibkarlıq sahəsində son illərdə nail olunmuş sürətli inkişafın davamlığını təmin etmək və rəqabət qabiliyyətini möhkəmləndirmək, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq məqsədi ilə xüsusi komissiya yaradıb.

Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafının stimullaşdırılması sahəsində görülən işlərin nəticəsidir ki, Dünya Bankının "Doing Business 2018: İş yerlərinin yaradılması məqsədilə islahatlar" reytinq hesabatında Azərbaycanın mövqeyi daha da yaxşılaşıb. Ölkəmiz 190 ölkə arasında 57-ci yerdə qərarlaşıb. Bundan əvvəlki hesabatda isə Azərbaycan 65-ci yerdə idi. Hesabatda Azərbaycan Avropa və Mərkəzi Asiya regionunda 3 ən islahatçı ölkədən biri elan edilib.

Reytinq hesablanarkən qiymətləndirilən 10 indikatordan 6-sı üzrə Azərbaycan irəliləyiş əldə edib. Belə ki, Elektrik şəbəkəsinə çıxış indikatoru üzrə 3 pillə, Əmlakın qeydiyyatı üzrə 1 pillə, Kiçik investorların hüquqlarının qorunması indikatoru üzrə 22 pillə, Vergilərin ödənilməsi üzrə 5 pillə, Müflisləşmə prosedurlarının rahatlığı üzrə isə 39 pillə irəliləyişə nail olunub.

Dünya Bankının hesabatında Azərbaycanın mövqeyinin yaxşılaşması ölkəyə xarici investorların gəlişi baxımından çox mühüm əhəmiyyətə malikdir. Çünki hansısa bir ölkəyə investisiya qoymaq istəyən investor mütləq 2 hesabata baxır - Qlobal Rəqabətqabiliyyətlilik İndeksi (Azərbaycan 2 pillə irəliləyib) və Doing Business. Hər iki hesabatda ölkəmizin mövqeyi getdikcə yüksəlir.

Ölkədə biznes mühitinin yaxşılaşdırılması, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının 59-dan 37-yə endirilməsi, sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin sayının təqribən 4 dəfə azaldılaraq 330-dan 87-yə endirilməsi ilə bağlı mühüm qərarlar qəbul olunub. Bununla yanaşı, dövlət başçısının imzaladığı müvafiq fərmanlarla ölkədə sahibkarların şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuraları yaradılıb.

**❑ İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

# ABŞ-ın ikibaşlı davranışı - “Dağlıq Qarabağı” tanımır, amma Saakyanı qəbul edir...

**Qarabağ separatçısı Bako Saakyanın ABŞ-a səfəri və ABŞ konqresinin inzibati binasında qondarma rejimi təbliğ edən tədbir keçirməsi ilə əlaqədar ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanın Xarici İşlər Nazirliyinə çağırılması və Dövlət Departamentinə nota təqdim olunması Azərbaycanda çoxlarının ürəyincə oldu.**





**Vaşinqtonun Bakıdakı elçiliyinin cavabı qaneedici sayılmır; Elxan Şahinoğlu: “Vaşinqton separatçılara bu qədər nəvaziş göstərirsə, nə əcəb Amerikaya Cənubi Osetiya, Abxaziya və ya Donbas separatçılarının liderləri dəvət olunmur?” Hikmət Hacızadə: “Konqresmenləri ”görərsən", lazımi bəyanat da alarsan"**

Rəsmi Bakının həmsədr ölkənin davranışlarına etirazına cavab sayıla biləcək yeganə açıqlamada isə anlaşılmaz məqamlar var. ABŞ-ın Azərbaycandakı səfirliyi “Amerikanın Səsi”nin Azərbaycan Xarici İşlər Nazirliyinin etiraz notası ilə bağlı sualının cavabında bildirib: “ABŞ-ın mövqeyi dəyişməyib. ABŞ digər ölkələr, o cümlədən Ermənistan da daxil olmaqla de-fakto Dağlıq Qarabağ rejimini tanımır. Birləşmiş Ştatlar ATƏT-in Minsk Qrupunun həmsədrlərinin prosesini dəstəkləyir və münaqişənin Helsinki - gücdən istifadə olunmaması, ərazi bütövlüyü, bərabər hüquqlar və xalqların öz müqəddəratını təyin etmə prinsiplərinə əsaslanan danışıqlar yolu ilə həll olunması üçün səylərini davam etdirəcək”. Sözügedən prinsiplərə istinadın özündə belə, ermənilərin maraqlarına cavab verən məqamlar var. Yeni güc tətbiq olunmaması - bu, elə ermənilərə lazımdır, ərazi bütövlüyünə hörmət - ermənilər və himayədarları o iddiadadırlar ki, Dağlıq Qarabağ Azərbaycan ərazisi olmayıb, bərabərlik və xalqların öz müqəddəratını təyin etməsi-bu da birbaşa Qarabağ ermənilərinin çörəyinə yağ sürtməkdir. Göründüyü kimi, ABŞ Azərbaycanla müttəfiqlikdən danışarkən belə, yenə də bizim əleyhimizə mövqe qoymuş olur, erməni işğalına və separatçılığa dəstək verir. Lakin istənilən halda, cavab qaneedici sayıla bilməz. Konkretləşdirsək, əgər ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa və Dağlıq Qarabağdakı separatçı qurumu qəbul etmirsə, onda hansı əsasla Konqres və ya Dövlət Departamentində separatçı Saakyanın tədbir keçirməsinə imkan yaradır?

**Politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, səfirliyin verdiyi cavab yetərli sayıla bilməz: “Dövlət Departamenti rəsmi Bakının erməni separatçılarının liderinin Vaşinqtona səfərinə etirazına belə cavab verdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Dağlıq Qarabağdakı rejimi tanımır. Tanımırsa, necə olur ki, həmin rejimin lideri Vaşinqtonda sərbəst görüşlər keçirir, fikir mübadiləsi aparır? Təəssüf ki, Amerika bu cür addımları ilə dostlarının sayını azaldır. Vaşinqton rəsmi Bakının çağırışlarını qulaqardına vurur. Separatçıların lideri illərdir Amerikaya gedir, görüşlər keçirir, hələ üstəlik telemarafon keçirib pul gətirir ki, işğal altındakı torpaqlarda infrastruktur çalışmalarını genişləndirsinlər. Vaşinqton buna mane olmur, olmaq da istəmir”. **Politoloq ABŞ-ın ikili mövqeyinə də diqqət çəkdi**: “Vaşinqton separatçılara bu qədər nəvaziş göstərirsə, nə əcəb Amerikaya Cənubi Osetiya, Abxaziya və ya Donbas separatçılarının liderləri dəvət olunmur? Nə fərqi var ki, keçmiş SSRİ məkanında separatçılar eyni mərkəzə tabedirlər və həmin mərkəz Vaşinqtonun rəqibidir. Buna baxmayaraq, Vaşinqton üçün erməni separatçılarının yeri ayrıdır. Bako Saakyanın ABŞ-a səfərindən iki məqsədi var. Birinci məqsəd konqresmenlərlə görüş keçirib ermənipərəst amerikanların dəstəyini almaq, ikinci məqsəd Amerikada yenə hansısa telemarafonda iştirak edib pul dilənmək və daha sonra həmin pulla işğal altındakı infrastruktur çalışmalarını genişləndirməkdir. Təəssüf ki, Vaşinqton Bako Saakyana hər iki məqsədinə çatmağına şərait yaradır və bununla ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirir. Sonra da deyirlər ki, dünyada niyə Amerikaya rəğbət yoxdur? Olmaz də, göz görə-görə Azərbaycan kimi ölkələri özünüzdən küsdürürsünüz, elə Türkiyəni də bu yolla özünüzdən uzaqlaşdırdınız”. Ancaq E.Şahinoğlunun qənaəti budur ki, biz istənilən halda duruma seyrçi qalmamalıyıq: “ABŞ Konqresində ermənipərəst konqresmenlərin olduğunu bilirik, elə Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanın Vaşinqtona səfərini onlar təşkil ediblər. Bəs axı az da olsa həmin Konqresdə Azərbaycanla əlaqəli olan konqresmenlər də var, ara-sıra Bakıya gəlirlər, Azərbaycanın Vaşinqtondakı səfirliyində keçirilən tədbirlərə qatılırlar. Niyə onlardan biri Saakyanın Konqresə gəlişinə etiraz etmir? Azərbaycanın ABŞ-dakı səfirinə də eyni sualı ünvanlaya bilərik: Bako Saakyanın Vaşinqtona səfərinə mane olmaq üçün nə etdiniz? Artıq Rusiyada ermənipərəstlər də hərəkətə gəliblər, yazırlar ki, Moskvanın da vaxtı gəlib ki, Bako Saakyanı Rusiyaya dəvət edib Dövlət Dumasında görüşlər keçirsin. Azərbaycan Xarici İşlər Nazirliyi və Diaspora Komitəsi nə isə tədbirlər planı hazırlamasa, Bako Saakyan bir gün Moskvada da peyda olacaq”.

**Politoloq Hikmət Hacızadə** isə dedi ki, Konqresin əsas qanunu lobbiçiliyə əsaslanır: “Kim haradan yardım alırsa, onun ölüsünə ağlamağa başlayır. Bunu da heç cür dayandırmaq olmur”. Ancaq politoloq rəsmi Bakının addımını tamamilə doğru sayır: “Bizim nota verməyimiz düzgün addımdır. Bilmək lazımdır ki, Konqresdə görüş və çıxışda bizim üçün qan qaraldan bir şey də olsa, əslində görüntü yaratmaqdan başqa bir şey deyil. Həmçinin bu, ciddi məsələ sayıla bilməz”.

ABŞ-ın Qarabağ separatçılarına postsovet məkanındakı digər separatçılardan fərqli davranmasının səbəblərinə gəldikdə, H.Hacızadə bunu da lobbiçiliklə əlaqələndirdi: “Konqresmenləri ”görərsən", lazımi bəyanat da alarsan".

❑ **Cavid TURAN,**
**“Yeni Müsavat”**

# Rusiyada sıxışdırılan İŞİD Azərbaycana üz tuta bilərmi...

## Ekspert: “Azərbaycana daha çox Orta Asiya respublikalarından təhlükə gələ bilər”

**Rusiyada İŞİD-ə qarşı ciddi əməliyyatlar başlayıb. Bir müddət öncə İraq və Suriyada sıxışdırılan İŞİD üzvləri Mərkəzi Asiyaya, Avropanın şəhərlərinə yayılıb orada yeni taktikalardan istifadə edərək teraktlar törədirdilər.**

Rusiya mətbuatının yaydığı məlumata görə, ölkənin paytaxtı Moskva və şəhərkənarı rayonlarında İŞİD qruplaşması tərəfdarlarını döyüşmək məqsədilə Suriya və İraqa göndərən mütəşəkkil dəstə ifşa olunub. Bildirilir ki, bu barədə Rusiya Federal Təhlükəsizlik Xidməti İctimai əlaqələr mərkəzi məlumat yayıb.

Aparılan əməliyyat tədbirləri nəticəsində məlum olub ki, sözügedən radikal dəstə eyni zamanda Mərkəzi Asiya ölkələrindən olan qanunsuz miqrantlar üçün saxta sənədlər hazırlamaqla məşğul olub.

Güc strukturları reydlər zamanı 60 xarici vətəndaşı şübhəli qismində saxlayıb. Onların terrorçu qruplaşmaların emissarları ilə əlaqələri təsdiqini tapıb.

“Yeni Müsavat”a danışan **təhlükəsizlik üzrə ekspert Nəzakət Məmmədova** bildirib ki, Suriyada məğlub edildikdən sonra İŞİD komandirlərinin və ümumiyyətlə sağ qalan terrorçuların əsasən Əfqanıstana təxliyə olunması barədə məlumatlar var:


Nəzakət Məmmədova

“Onların bəzilərinin Avropaya, Türkiyəyə, Rusiyaya, Mərkəzi Asiya və Misir, Liviya kimi Şimali Afrika ölkələrinə göndərilməsi də istisna olunmur. Rusiya prezidenti Putin və müdafiə naziri Şoyqu bu məqsədlə Misirə səfər ediblər və ölkə rəhbərliyi ilə terrorçulara qarşı mübarizə üçün hərbi aerodromların birgə istifadəsi məsələsini müzakirə ediblər. Bu yaxınlarda Dağıstanda kilsədən çıxan şəxslərə atəş açan terrorçu da İŞİD-lə əlaqədə şübhəli bilinmişdi. Bu, İŞİD-in Rusiyada terror törədə biləcəyi təhlükəsini bir daha sübut edir. Terrorçularla əlaqədə bilinən şəxslərin həbsinə gəlincə, bununla həm də seçkiqabağı Putinin reytinqinə əlavə xal qazanmaq, əhali arasında terror təhlükəsi olması və bunun qarşısını almağa qadir yeganə şəxsin yalnız çekist prezident, Suriyada İŞİD-i məğlub etmiş Putin olması fikri təlqin oluna bilər. Eyni zamanda bu, əhalinin seçkidə fəallığını artırmaq və onların indiki prezidentə səs verməsi üçün atılmış addım ola bilər. Bu hal - əhalinin seçkiyə gedib ona könüllü səs verməsi Putinin daxildə və xaricdə legitimliyinin artırılmasına kömək edərdi. Bu cür terror təhlükəsi siqnalı və ya terror aktlarının özünün Rusiya xüsusi xidmət orqanları tərəfindən təşkilinə dair iddialar daima səslənib. Litvinenko bu barədə "Federal Təhlükəsizlik Xidməti Rusiyanı partladır" adlı kitabında geniş iddialar ortaya atmış, Putinin öz hakimiyyətini qorumaq üçün terror aktları təşkil etdiyini qeyd etmişdi. Bu baxımdan hazırkı əməliyyatın seçkiqabağı dövrə təsadüf etməsi diqqətçəkəndir. Bəzi xüsusi xidmət orqanları müəyyən siyasi kampaniyalar, peşə bayramları, il sonunda fəallaşaraq öz vacibliyini göstərməyə çalışır. Bununla belə, Rusiyaya təhlükənin olması da istisna edilmir. Rusiya fövqəldövlət ambisiyaları olan, fəal regional və qlobal siyasət aparan dövlətdir və onun bu siyasəti bir çox qüvvələrin diqqətini özünə yönəlməyinə səbəb olur. Yaxın Şərqdə Rusiyanın hərbi bazalarına hücumlar, təyyarələrinin vurulması ilə yanaşı, öz ərazisində də terror təhdidi mümkündür. Xüsusən, ən son dövrlərdə Putinin müasir silahları nümayiş etdirməsi, ABŞ-da dövlət katibi postuna Mərkəzi Kəşfiyyat İdarəsinin şefi Maykl Pompeonu gətirilməsi, onun yerinə adı işgəncələrdə hallanan müavini xanım Hansenin təyin olunması üçün Senata təqdimat göndərilməsi ABŞ-ın bu təhdidlərə səssiz qalmayacağını, öz xarici siyasətini sərtləşdirəcəyini deməyə əsas verir. Bu fonda terrorçuların da dövlətlərin bir-birinə qarşı mübarizədə təzyiq vasitəsi kimi istifadə məqsədilə fəallaşdırılması istisna edilmir".

**Ekspert bildirib ki, Rusiyada sıxışdırılan terrorçuların Azərbaycana nüfuz etməsi ehtimalı mümkündür:** “Lakin bu, çox zəif ehtimaldır. Çünki Rusiya bütün MDB ölkələri ilə antiterror sahəsində sıx əməkdaşlıq əlaqələrinə malikdir və bu barədə məlumat mübadiləsi aparılır. Eyni zamanda, Rusiya İranla da bu sahədə yaxından əməkdaşlıq edir. Azərbaycana daha çox Orta Asiya respublikalarından təhdid gəlməsi mümkündür. İran ərazisindən İŞİD terrorçularının ölkəmizə nüfuz etməsi imkanları çox zəifdir, çünki İran xüsusi xidmət orqanları bu məsələyə çox ciddi nəzarət edir. Lakin Əfqanıstan, Orta Asiya marşrutu üzrə bu, mümkün ola bilər. Bununla belə, Şimali Qafqaz, Orta Asiya, Türkiyə terrorçuların diqqətində olduğu üçün bizə qarşı da təhdidlər qalmaqda davam edir. Ermənistanın da bizə qarşı hansısa formada terrorçu göndərməsi amili daima olub və var. Lakin sirr deyil ki, terror təşkilatları özbaşına hərəkət etmir, onları müəyyən böyük dövlətlər vasitə kimi istifadə edir. Bizim ölkəmiz də fəal regional siyasət yeridir, müəyyən qlobal layihələrin aktiv təşəbbüskarı və iştirakçısıdır. Azərbaycanda marağı olan qüvvələr Qarabağ kimi, terrordan da bizə qarşı vasitə kimi istifadə edə bilər. Lakin indiki şəraitdə, bizim terroru dəstəkləməkdə adı hallanan dövlətlərlə bir problemimiz olmadığı üçün onların indiki şəraitdə buna əl atacağı inandırıcı görünmür".

❑ **Əli RAİS**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənov özünün facebook səhifəsində maraqlı yazısını paylaşıb. "Yeni Müsavat" həmin məqaləni dərc edir.**

Əli HƏSƏNOV

# Vətənpərvərlik hissini itirmək dəhşətli milli faciədir...



***

***Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 ili tamam olur. Cümhuriyyətimizin yubileyi dövlət səviyyəsində qeyd ediləcək, il ərzində həm Cümhuriyyət, həm Cümhuriyyət dövrü təsis edilmiş ayrı-ayrı qurumlar, həm də Cümhuriyyətimizin qurucuları ilə bağlı silsilə tədbirlər keçiriləcək.***

Müsəlman Şərqində respublika üsuli-idarəsinə söykənən ilk demokratik dövlətin, dini, irqi, sosial fərqlərə baxmadan öz müqəddəratını vahid siyasi etnos kimi təyin edən, müasirliyə açıq, dünyəviliyə, liberalizmə sadiq bir icmanın tarix səhnəsinə daxil olması keçmişimizin qürurverici dövrüdür. Müsəlman Şərqi və Şərqi Avropada qadınlara ilk dəfə bərabər hüquqları tanıyan, Şərqdə ilk əlifba və dil islahatı aparan, seçki sistemini liberallaşdıran, ilk yeni teatr və müasir musiqi ənənəsi yaradan və digər iklərə imza atmış ölkə və etnos olmağımızla necə fəxr etməyək?!.

Amma Cümhuriyyət sadəcə hüquqi varislik deyil, biz Cümhuriyyətimizin, onun qurucularının mənəvi irsinə varisliyi də bacarmalıyıq. Yalnız dövlətimiz o zaman təsis edilmiş rəsmi qurumların davamçıları deyil, insanlarımız da o böyük irsin, Cümhuriyyət qurucularının mənəvi keyfiyyətlərinin daşıyıcıları olmalıdır...

Qurucu ata-babalarımızın həm Cümhuriyyətin mövcud olduğu 23 ay müddətində sərgilədiyi fəaliyyət, həm də Cümhuriyyətin süqutundan sonra mühacirət dövründəki Vətənə, milli dövlətçilik ideallarına sədaqətli xidmət nümunələri mənimsənilməsi vacib olan nümunəvi irsdir.

Məsələn, Əlimərdan bəy Topçubaşov Azərbaycan Cümhuriyyətinin süqutundan keçən illər ərzində çəkdiyi məşəqqətlərə, düçar olduğu çətinliklərə, düşdüyü maddi sıxıntılara baxmayaraq cəmi 23 ay yaşamış AXC-yə sədaqətini ömrünün sonunadək qoruyub saxlamışdır. Hərçənd şirnikləndirici təkliflər yetərincə idi. Hələ XX əsrin əvvəllərində qonşu ölkələrdən biri ona hüquqi təhsilinə uyğun olaraq ən yüksək post - nazir postu da təklifi etmişdi.

Bu və ya digər səbəblərdən Vətəndən uzaq düşmüş çoxsaylı həmvətənlərimizin əksəriyyəti keçmiş illərdə və günümüzdə bəhs olunan müsbət ənənəni yaşatsa da, təəssüf ki, heç də hamı haqqında eyni fikirləri söyləmək mümkün deyil. Bəzən bu və ya digər yüksək postu tutmaq müqabilində deyil, sadəcə "komfortlu iaşə obyektindən istifadə imkanı" qazandığına görə milli ideallarımıza xəyanət yolu tutan və milli maraqlarımıza qarşı çıxanlar da tapılır...

Daha komfortlu iaşə obyektlərindən istifadəni reklam etmək, bu və ya digər kuluarlarda, kulislərdə görünmək, doğrudanmı, insanları Qərb dəyərlərinin, liberalizmin, müasirliyin simvoluna çevirir?

Özünü Qərb dəyərlərinin daşıyıcı olduğuna inandırmaq milli idealları, dəyərləri, dövlətçiliyi, milli savaşı inkar etməyə əsas verirmi? Komfortlu iaşə obyektlərinin üzərinə şüarlar yazıb, şəkil yapışdırmaq, sosial şəbəkələrin verdiyi imkanlardan sui-istifadə insanı azadlıq mücahidinə çevirirmi?..

***Yaxın Şərq coğrafiyasında son 10 ildə yaşananlara nəzər salın. Guya hakimiyyətə qarşı mübarizə adıyla səfərbər olunub anti-milli, ekstremist düşərgədə yer alan, əllərində silah doğma vətənlərinin yerlə-yeksan edilməsində həlledici qüvvə kimi istifadə olunan vətəndaşlardan xəbəriniz yoxmu məgər?***

Hazırlandıqları xüsusi düşərgələrdəki komfortlu iaşə obyektlərinə aldanan belə şəxslər öz doğma yurdlarını xarabazarlığa çevirir, doğmalarına komfortsuz həyatı belə dar edirlər. Bütün bu dəhşətləri görmək və müvafiq nəticə çıxarmaq üçün heç də alim, siyasətçi olmağa ehtiyac yoxdur. Qərbdə formalaşdırılaraq inkişaf perspektivi olan və Avropanın durğun cəmiyyətinə dinamika nümunəsi göstərən müsəlman ölkələrinə qarşı son illərdə istifadə edilən necə-necə məkrli ssenariləri, çirkin planları, dəhşətli vətəndaş müharibələrini görmürsünüzmü?!.

***Azərbaycan dövləti öz təhlükəsizliyini bərqərar edərək, coğrafiyamızın sabitlik adasına çevrilib. İndi bu sabitliyin qəsdinə duranlara, ölkəmizə qarşı istənilən formada mübarizə aparmağa hazırlaşanlara, hətta əllərinə silah alaraq ölkəmizi dağıtmağa belə hazır olanlara üzümü tutaraq sual edirəm: onlarla, yüzlərlə qohum-əqrəbanız sabah Yaxın Şərq və Şimali Afrika ölkələrinin qaçqınlarının nümunəsində sizin məskunlaşdığınız o dövlətlərə üz tutsalar, özünüzü necə hiss edəcəksiniz? Yaxud da "PYD", "İŞİD" və sairə adlarla silahlandırılaraq qruplaşdırılan dəstələrin sırasında öz ölkənizin sərhədlərini adlayaraq doğulduğunuz, yaşadığınız yurdu yerlə-yeksan etmək missiyası sizə həvalə ediləndə özünüzü necə hiss edəcəksiniz?..***

Neçə illərdir Avropada yaşayırsınız və yaşadığınız ölkələrdə əxz etməyə çoxsaylı müsbət nümunələr var: vətənpərvərlik nümunəsi, vətəni və xalqı sevmək və təmsil etmək nümunəsi, dinc siyasi mübarizə nümunəsi, həqiqi ictimai fəallıq və s. Amma siz daim tərif və təlqin etdiyiniz bu mədəni Avropada gör nə nümayiş etdirirsiniz: opponentlərin ünvanına söyüş və təhqirlər yağdırmaq, dövlət simvollarını aşağılamaq, siyasi rəqibləri mənəvi və fiziki təhqirlərə məruz qoymaq, mənəviyyatsız söyüş və çağırışlar etmək...

Hə olardı, heç olmasa aralarında yaşadığınız bu avropalılardan siyasi mübarizə mədəniyyəti öyrənəydiniz. Onların necə siyasi debat apardıqlarını, bir-biri ilə siyasət və opponentlik dilində necə hörmət və izzətlə davrandıqlarını nümunə kimi əxz edəydiniz. Belə bir deyim var: "İnsanlar təkcə bildikləri danışıq dilində deyil, eyni zamanda malik olduqları mədəni-mənəvi keyfiyyətlərinin dili ilə danışırlar".

Tələbəlik illərindən xatirimdə qalan bir hadisəni danışmaq istəyirəm. Cimmi Karter 1980-ci illərin prezident seçkilərində aktyor Ronald Reyqana məğlub olmuşdu və bir müddət sonra Moskvaya gəlmişdi. O zaman rus jurnalistindən birinin ona ünvanladığı opponenti və ABŞ-ın seçki sistemi haqqındakı yönəldici sualına bilirsinizmi o hansı cavabı vermişdi... O söyləmişdi ki, "mən rəqibimlə öz siyasi mübarizəmi ABŞ-da aparıram, xaricdəsə amerikalıyam və ABŞ-ın maraqlarını təmsil edirəm".

*Bu gün İlham Əliyevin təmsil etdiyi hakimiyyətə qarşı opponentlik edənlər öz mübarizələrini sərbəst formada Azərbaycanda - yerli informasiya resurslarında, sanksiyalaşdırılmış aksiyalarda, parlament tribunalarında aparırlar. O mübarizənin sərtliyi heç də iaşə müxalifətçiliyindən daha aşağı tonda deyil. Amma buna görə kimsə təqib olunmur, 25 illik müxalifət yenə də öz amplausındadır və yoluna davam edir.*

***Təəssüf ki, xaricdə yaşayan bəzi azərbaycanlılar bu gün bizim milli davanın sıra əsgərləri deyil, düşmənlərimizin sırasında və ön cərgəsində dayanıblar. Onların Azərbaycan dövlətinə qarşı aksiyaları belə sinxrondur - eynilə bu gün ABŞ-da iaşə müxalifəti və separatçı qurumun planlaşdırdığı aksiyalar kimi. Vətənpərvərlik duyğusunu, Vətən əxlaqını itirmək böyük faciədir. Bu, sadəcə bir fərdin və onun mənsub olduğu ailənin problemi deyil, bəlləri anti-Azərbaycan dairələrin əlində alətə çevrildikləri üçün bütün xalqımızın problemidir. Bu problemin çözümü ilə ilk növbədə ailələr və xaricdə yaşayan, Vətən əxlaqını qoruyan, Cümhuriyyətin qurucularının mühacir irsinin mənəvi varisi deyə biləcəyimiz diaspor nümayəndələrimiz məşğul olmalıdır...***




## Türkiyə ordusu davamlı sülh əldə olunana qədər Suriyada qala bilər

### Hasan Oktay: "Türkiyənin təklif etdiyi model indi həm Amerika, həm Rusiya, həm də İran üçün əlverişli olduğundan onu dəstəkləyəcəklər"

**Türkiyə ordusu və ASO birlikləri Suriyanın Afrin rayonunun eyni adlı mərkəzini mühasirəyə alıb. Yaxın saatlarda Afrin şəhərinə hücum əməliyyatı başlayacaq. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyub Ərdoğan açıqlama verib. Ərdoğan deyib ki, Afrinin axşama qədər (martın 14-ü - K.R.) terrorçulardan təmizlənəcəyinə ümid edir.**

Türkiyə prezidenti bəyan edib ki, yanvarın 20-dən başlayan Afrin əməliyyatı çərçivəsində 3444 nəfər terrorçu zərərsizləşdirilib. Ərdoğan deyib ki, cəmiyyətin müxtəlif təbəqələri Afrinə getmək istədiyini bildirib. O, terrorçuların qaçdığını, sürətlə şəhəri tərk etdiyini. Ancaq eyni zamanda qaçarkən də bölgəni minaladığını bildirib. Ərdoğan martın 14-də terrorçuların qaçış yolunun bağlanacağını bildirib.

Ərdoğan bildirib ki, Afrin mərkəzinin Suriya hökumət qüvvələrinə təslim edilməsi layihəsi Türkiyə ordusunun müdaxiləsi nəticəsində pozulub. Artilleriya zərbələri ilə Afrinə gedən hökumət qüvvələri məhv edilib. O, əməliyyatın davam edəcəyini bildirib: "Afrinə doğru karvanlar yola çıxdı, amma biz onları mülki əhaliyə zərər vermədən yolda məhv etdik. İndi də eyni üsulla davam edəcəyik. Afrini, Menbici və Fəratın şərq sahillərini də eyni şəkildə terrorçulardan təmizləyəcəyik".

Türkiyə ordusunun məlumatına görə, Afrinə əməliyyata dəstək məqsədilə gedən Türkiyə ordu hissələri Hatay vilayəti sərhədindən və Kilis istiqamətindən Afrin rayonu ərazisinə daxil olub. Türkiyə ordusu Afrinə doğru bir neçə kəndi azad edib və bununla da rayon ətrafında mühasirə yaradılıb. Artıq Afrindəki 200-dən artıq kənd terrorçulardan təmizlənib. Türkiyə ordusunun şimaldan, qərbdən və cənubdan 3 istiqamətdən Afrinə doğru irəlilədiyi bildirilir. Artıq şəhərin ətrafında Türkiyə ordusu zirehli birlikləri yerləşərək mövqe tutub. Buradan Afrini nəzarətdə saxlamaq və atəşə tutmaq mümkündür. Yaxın saatlarda Afrin əməliyyatının başlaması və şəhərə Türkiyə ordusunun daxil olması gözlənilir.

Ancaq əməliyyatın nə qədər davam edəcəyi hələlik məlum deyil. Əgər kürdlər silahlı müqavimət göstərməyi gözə alsalar, o zaman Afrinin azad edilməsi zaman ala bilər. Çünki böyük şəhərlərdə əməliyyatlar uzun zaman alır və hətta dünyanın ən təcrübəli orduları üçün ciddi sınağa çevrilir. Bu baxımdan Afrin mərkəzinin təmizlənməsinin nə qədər vaxt tələb edəcəyini indidən demək çətindir.

Türkiyə hakimiyyəti isə qərarlıdır. Ordunun yaxın günlərdə Afrini azad edib növbəti mərhələdə şərqə doğru Menbic əyalətinə doğru yönələcəyini bəyan edib. Bununla da Hataydan Menbic sərhədlərinə qədər təxminən 200 kilometrlik və 4 min kvadrat kilometrlik ərazi azad edilərək Türkiyə ordusu və müttəfiqlərinin nəzarətinəı keçəcək. Xatırladım ki. 2016-cı ilin 24 avqustunda başlayan və 5 ay davam edən "Fırat kalkanı" əməliyyatı nəticəsində Türkiyə ordusu əl-Bab şəhərinə qədər dərinliyə doğru Azez və Cerablus şəhərləri arasındakı 95 kilometr uzunluğunda bir ərazini, yəni başqa sözlə 2 min kvadrat kilometr ərazini azad etmişdi. Afrində də təxminən bu qədər ərazinin nəzarətə götürüləcəyi ehtimal olunur. Bəs bundan sonra nə olacaq? Afrin və eləcə də Azez-Cerablus xətti əraziləri hansı statusda olacaq? Tüqrkiyə ordusu oralarda nə zamana qədər qalacaq?

"Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, analitik Hasan Oktay deyir ki, Türkiyə ordusu Afrini azad etdikdən sonra şəhəri təhlükəsiz bölgəyə çevirəcək. Bu isə ilk növbədə Türkiyəyə qarşı təhdidi azaldacaq: "PYD və digər terror qrupları artıq Afrin kimi ərazilərdə yerləşərək Türkiyə ərazilərini təhdid etməyəcək. Bu əməliyyatın davamı Menbicdə də ola bilər. Türkiyə beynəlxalq hüququn verdiyi legitimliyi əsas gətirərək Suriya torpaqlarında terrora qarşı mübarizəni sona qədər davam etdirəcək. Bu gün Moskvada Lavrovla Çavuşoğlu arasında baş verən danışıqlar buna ən böyük dəstəkdir".

H.Oktay deyir ki. ABŞ dövlət katibinin dəyişməsi Türkiyə ilə danışıqlara mənfi təsir etməyəcək: "Çünki ABŞ terror təşkilatı, yoxsa Türkiyə ilə strateji tərəfdaş olması ilə bağlı qərar verməlidir. Türkiyənin Suriya mövzusunda irəli sürdüyü tezis bu ölkənin ərazi bütövlüyü və terrordan təmizlənməsi üzərində qurulduğu üçün həm Rusiya, həm Amerika, həm də İran tərəfindən dəstəklənəcək".

Türkiyə ordusunun nə zamana qədər Suriyada qala biləcəyinə gəlincə, H.Oktay deyir ki, Afrində təhlükəsizlik zonasının yaradılması və Türkiyədəki qaçqınların geri dönməsini təmin etməsi üçün Suriyada davamlı sülh əldə edilənə qədər Türkiyə ordusu azad edilmiş ərazilərdə qala bilər.

❑ Kənan RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"



# Abort edilmiş təhsil

Zamin HACI
zaminhaci@gmail.com

**"Bəsdir o bildikləri, kaş onu da bilməsə!**
**Canıma olsun fəda bir də üzü gülməsə!**
**Ta ki, o zehnindəki fikrləri silməsə,**
**Sanma ola bəxtəvər, oxutmuram, əl çəkin!"**

**Dünən söz verdiyim kimi, saxtakarlıq və yalançılıq temasını davam etdirmək istəyirəm. Açığı, o qədər geniş temadır yazmaqla bitmir. Jurnalist üçün əsl çörək ağacıdır.**

Son günlər ortalığa atılan və bir növ yalana çıxarılan iki təhsil xəbəri var idi. Bunlardan biri məktəblərdə çoxlu sayda uşağın abort olunmasına aid idi, mənbəyi müəyyən olunmadı. Hərçənd, bunu tam yalan da saymaq olmaz: məktəblər bu dəqiqə uşaqları abort eləməyin, məhv etməyin məkanlarından biridir. Məzahir müəllimin seçki obyektlərindən olan təhsil sistemi uzun illərdir saxtakarlıq cinayətlərinə şərikdir. Yəni orada həm də demokratiya abort olunur, xalqımızın üzünü görmədən bətndə ikən öldürülür. Rəhmətlik ədliyyə nazirimiz Südabə xanımın "Demokratiyanı beşikdə boğmalıyıq" şüarını lap bir addım da qabaqlayırlar. Doğrudan da, demokratiyanı beşiyə qədər sağ saxlamağın mənası nədir? Birdən demokratiya beşikdə dəyişik düşdü, sağ qaldı? Gərək o zaman demokratiyanı soyundurub yanına baxaq, görək xalı vardırmı. Sonra gəl bunun indeyski kinosunu çəkib "Speys" kanalında göstər... Uzun işdir. Sözgəlişi, mən Südabə xanımın 90-cı illərdəki nazir fəaliyyətinin ardından xəbərsiz idim, bu yaxında nigarançılığımı cızmaqaralarımın hansındasa bəyan etmişdim. Sən demə o, sağ-salamatdır, Konstitusiya Məhkəməmizdə (nə qədər "mə-mə" var bu sözdə!) hakim vəzifəsində çalışır. Ümid edirik orada da demokratiyanı beşikdə boğmaq fəaliyyətinə qəti fasilə verməmişdir. Gec də olsa 8 mart bayramını təbrik edirik.

Harda qalmışdıq? Hə, ikinci xəbər 9-cu siniflərin martın 4-də keçirilən ana dili və riyaziyyat imtahanında pis göstəricisi haqda idi. Ekspert respublika üzrə 75 faiz şagirdin bu imtahanda "2" aldığını söylədi. Ancaq dövlət nümayəndələri inkar elədilər, dedilər hələ heç nəticələri yoxlamamışıq, bunu necə öyrənibdir? Mən "kim haqlıdır" soruşmaq istəmirəm. Ola bilsin ekspert doğrudan gopa basmışdır. Lakin "mal bizimdir, kəramətinə bələdik" tezisindən çıxış eləsək, 75 faizin kəsilməsi o qədər də fantaziya kimi görünmür. Çox mümkündür. Bunun səbəblərini bir az geniş yazmalıyam.

Birincisi, 9-cu siniflər üçün bu dəfəki ümumrespublika imtahanı Misir müəllimin məhşur kurrikulum oyunbazlığının (el arasında quqquluquium deyilir) sonucu, ya da belə deyək, ilk sınağı kimi anlaşılmalıdır. Çünki sıfırdan - 1-ci sinifdən kurrikulumla başlayan uşaqlar indi 9-u qurtarırmış. O uşaqların necə əzab-əziyyət çəkdiyini, başlarına hansı corabların, eksperimentlərin hörüldüyünü isə bu illərdə biz yaxından görmüşük. Elə martın 4-də keçirilən imtahanın bir sui-qəsd olması açıqdır. Təsəvvür edin, uşaqlara 20 Azərbaycan dili və 10 riyaziyyat tapşırığını həll etmək üçün cəmi 2 saat vaxt ayrılmışdı. Hər suala 4 dəqiqə. Özü də bu, bir neçə cavab variantı verilən test sualları yox, açıq məsələ və tapşırıqlar olmuşdur. Mənim yadıma gəlir, sovet dövründə belə açıq suallarla riyaziyyat imtahanı verib universitetə girirdik, o zaman bizə cəmi 3 tapşırığı həll etmək üçün hardasa 3 saat vaxt ayrılırdı. İndi yazıq 9-cu sinif şagirdi 2 saata 30 tapşırığı necə həll etməlidir? Deməli burada başqa məqsəd var. Hansı məqsəd? Bax söhbət bundadır.

Məncə, hakimiyyət elə uşaqların "75 faizinin 2 almasında" maraqlıdır. Bu şayiələri də qabaqcadan qəsdən buraxırlar. "Neyləyək, uşaqlarınız oxumur" - vurğu bunun üzərindədir. Məktəbin, təhsilin dövlət səviyyəsində gözdən salınması proqramı var. Əsas da ona görə ki, təhsilə dövlət büdcəsindən 10 faizə yaxın pul gedir. Bunu ixtisara salmaq istəyirlər. Çatdıra bilmirlər. Pul yoxdur. 9-cu siniflər buraxılış sinifləridir. Bununla icbari təhsil bitir. 10-11-i oxumaq artıq şagirdin özündən asılıdır. Şagird isə imtahandan "2" almışdır. Deməli, nə etməliyik? Ay sağ ol: siniflər ləğv olunmalıdır. Məktəbi uçurdub yerində pambıq əkmək lazımdır.

**İqtisadçı-ekspert Rövşən Ağayev hələ 2015-ci ilin təhsil statistikasını əldə edərkən bir detala diqqət eləmişdi: sən demə, bizdə 11-ci sinifi bitirən şagirdlərin sayı sivil dünya standartından çox aşağıdır. Sitat: "Bakı və Naxçıvan istisna olmaqla ölkənin yerdə qalan regionlarında 15 yaşlı uşaqların 35-40%-i orta məktəb təhsilini dayandırır. Düzdür, onların təxminən 10-12%-i peşə məktəbinə və texnikuma gedir, amma ən azı 30%-i 9 illik təhsilin məhsulu kimi əmək bazarına (daha doğrusu, belə təhsillə qul bazarına) üz tutur. Müqayisə üçün, Qərbdə, elə Şərqi Avropanın da əksər ölkəsində 17 yaşlı uşaqların ən azı 90-95%-i tam orta təhsili bitirir".**





# Kremlədən müttəfiqinə tərs şillə - düşmən öz paytaxtında pərt edildi

## Rusiyanın yüksək çinli rəsmisi İrəvanda öz ölkəsinin Azərbaycana silah satışına bəraət verdi: "Biz Bakı ilə silah müqavilələrinin şərtlərinə əməl etməyə borcluyuq..."

**Rusiyanın bölgədəki əsas forpostu olan Ermənistan Qərblə Kreml arasında "ikili oyun"unu davam etdirir. Dağlıq Qarabağdakı separatçı rejimin başçısı, terrorçu-quldurbaşı Bako Saakyanın iki gündür ABŞ-da veyllənməsi də bu ikibaşlı siyasətin təzahürüdür. Halbuki, Saakyanın Rusiyanın adamı, daha dəqiqi, "Kreml tulası" ayaması ilə gizli casusu olduğu çoxdan məlumdur.**

**Təbii ki, Moskvada ermənilərin davranışında Rusiya maraqları əleyhinə olan bu kimi son gəlişmələri diqqətlə izləyirlər. Rusiya Azərbaycanla silah ticarətinin işğalçı ölkədə doğurduğu qıcığın bəhanə qismində Moskva əleyhinə istifadə olunmasının, bundan dolayı erməni cəmiyyətində anti-Rusiya ovqatının körüklənməsinin də yaxşı fərqindədir. Hərçənd, Ermənistan formal mövcudluğuna görə belə, müstəsna olaraq, Rusiyaya borcludur.**

*****

Bununla belə, düşmən ölkədə hər fürsətdə Bakı-Moskva hərbi-texniki əməkdaşlıq faktını Rusiya rəsmilərinin üzünə vurmaqla, Kremli müttəfiqlik öhdəliklərinə sadiq olmadığını sübut eləməyə çalışırlar. Eyni zamanda özləri altdan-altdan Qərbə, Avropaya reveranslar eləməklə Moskvanı hər an sata biləcəkləri ilə şantaj edirlər. Yenə istisna olmadı. Belə ki, bu arada böyük bir nümayəndə heyəti ilə İrəvanda səfərdə olan Rusiya Federasiya Şurasının Beynəlxalq işlər komitəsinin sədri Konstantin Kosaçev analoji ittihamla üzləşib.

"Yeni Müsavat"ın erməni qaynağına istinadən verdiyi məlumata görə, İrəvandakı mətbuat konfransında erməni jurnalistlər onu Rusiyanın Azərbaycanın silah tərəfdaşı olmasına görə az qala "topa tutublar". Əsas sual da belə olub: "Kremli Ukraynaya silah satılması hiddətləndirir. Ancaq bu, ona Ermənistanla müttəfiq ola-ola Azərbaycana 5 milyard dollar həcmində silah satmağa mane olmur - hansı silahların ki, bir qismi 2016-cı ildəki aprel müharibəsində istifadə olunub. Bunu necə izah edərdiniz?"

Rusiya rəsmisinin cavabı isə erməniləri tam mənasında məyus edib. Faktiki, İrəvanda "tərs şillə" effekti yaradıb.

Kosaçev öncə bildirib ki, Rusiyanın Azərbaycana silah satışı sırf kommersiya maraqlarından doğur və 2016-cı ilin aprelinədək olan anlaşmalar çərçivəsində həyata keçirilir. Yəni, qənaət hasil olur ki, Moskva İrəvanın hay-küyünü ciddiyə almadan Bakı ilə silah ticarətini 2016-cı ilin aprelindən sonra da dayandırmayıb - öncə imzalanan sazişlər əsasında olsa belə.

"Birinci, onu qeyd edim ki, belə hallarda söhbət qaynar fazada olan konfliktlərdən, o cümlədən hazırda silahların işə düşdüyü Ukraynadan gedir. Xoşbəxtlikdən Dağlıq Qarabağ münaqişəsi qaynar fazada deyil. Hamımız başa düşürük ki, vəziyyət partlaya biləcək həddədir və 2016-ci ilin faciəvi aprel hadisələri bunu bir daha təsdiqləmiş oldu. Rusiya (Azərbaycanla - red.) 2016-cı ilin aprelinədək olan sazişləri həyata keçirir. Biz həmin müqavilələrin bəndlərinə uyğun olaraq bunu etməliyik. Bildiyim qədəri ilə də Bakı ilə indiki həcmdə ticarət olmayacaq. Şübhəsiz ki, biz 2016-cı ilin aprelində yaşanmış situasiyaya reaksiya veririk. Buna şübhə olmasın", - deyə Komitə sədri əlavə edib.

*****

**Lakin "Yeni Müsavat" bu yerdə xatırladır ki, Rusiya baş nazirinin müavini, Putinin yaxın adamlarından biri, ölkənin hərbi-sənaye sahəsinə cavabdeh olan Dmitri Roqozin ötən ilin sonunda Bakıda olub və Azərbaycanla yeni hərbi müqavilələrin imzalanmasının mümkünlüyünü söyləyib.** Prezident İlham Əliyev isə həm bu ilin, həm də ötən ilin Davos forumlarında (yanvar) etdiyi çıxışları zamanı Rusiyadan ən yeni silahların alınacağı və yeni sazişlərin imzalanacağının anonsunu vermişdi - hansı ki, bu da işğalçı Ermənistanda təlaş qarışıq, Rusiyaya qarşı isteriyanı daha da gücləndirmişdi.

Deməli, Kosaçov əslində erməniləri həm də başdan edib. Çünki Azərbaycan-Rusiya hərbi-texniki əməkdaşlığı təkcə köhnə anlaşmalar əsasında deyil, bütövlükdə heç nəyə baxmadan, qarşılıqlı maraqlar əsasında inkişaf edir.

Onu da xatırladaq ki, bu günlərdə Stokholmdakı Dünya Problemləri İnstitutunun (SIRRI) dünya üzrə silah ticarəti ilə bağlı yaydığı hesabatda Azərbaycanın son illər ərzində əldə elədiyi silah-sursat haqda da arayış yer alıb. Sənədə görə, Bakı təkcə son iki ildə 551 milyon ABŞ dolları dəyərində silah və hərb texnika alıb.

Bildirilir ki, 2017-c ildə Azərbaycan İsraildən 4 ədəd OPV-62 döyüş gəmisi, Azərbaycanda birgə istehsal edilənlər də daxil, 40 ədəd "Orbiter" pilotsuz uçan zərbə aparatı, 215 ədəd "Spike-NLOS" tank əleyhinə raketlər alıb. Bundan əlavə, Bakı Çexiyadan 10 ədəd 122 mm-lik "RM-70" reaktiv atəş sistemləri, Slovakiyadan 18 ədəd "Dana" 152 mm-lik özüyeriyən qaubitsa (tırtıllı texnika - red.) idxal edib. Hesabatın Azərbaycana aid hissəsində daha sonra deyilir: "Azərbaycan Rusiyadan da böyük həcmdə silah alıb. Belə ki, hesabat dövrü ərzində Moskva Bakıya 36 vahid "Solntstepek" TOS 1 A ağır odsaçanlar, 40 ədəd BTR -82A, 800 vahid "Xrizantema" raket əleyhinə sistem satıb. Bundan əlavə, Rusiyadan daha 36 vahid "Solntstepek" TOS 1 A ağır odsaçanlar gətirilib. 2013-2014-cü illərdə Azərbaycan Rusiyadan başqa hərbi texnikalarla yanaşı, daha 18 ədəd "Solntstepek" əldə edib".

*****

**Maraqlıdır ki, bu rəqəmlər erməni tərəfində narahatlıqla qarşılanıb. Yerli KİV-lərdəki ekspert şərhlərində həmin silahların çox cüzi hissəsinin 2016-cı ilin "4 günlük" aprel müharibəsi zamanı istifadə edilməsinə xüsusi diqqət yönəldilib. Bu təlaş da məntiqlidir. Üstəlik, nəzərə alsaq ki, yeni Qarabağ savaşında Rusiya ümumiyyətlə, neytral qala, yəni açıq şəkildə müttəfiqi Ermənistanın tərəfini tutmaya bilər. Yeri gəlmişkən, az öncə "Rus NATO-su" kimi tanınan KTMT-nin Birləşmiş Qərargahlar rəisi Anatoli Sidorov Dağlıq Qarabağın KTMT-nin məsuliyyət sonasına daxil olmadığını və o üzdən Azərbaycan sərhədləri daxilində hərbi əməliyyatlara Rusiyanın qarışmayacağını bəyan eləmişdi...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

**1999-cu ildə ABŞ Abdullah Öcalanı Türkiyəyə verməklə PKK-ya nəzarəti Suriyadan öz əlinə aldı. Axar.az xəbər verir ki, bunu "Hürriyet" qəzetinə açıqlamasında Türkiyə Baş Qərargahının keçmiş rəisi İlkər Başbuğ deyib.**

# Türkiyə Öcalanı Amerikadan hansı şərtlərlə alıb - Başbuğun dediklərinə reaksiyalar

## Azərbaycanlı ekspertlərdən olayla bağlı maraqlı şərh

"Bunu ilk dəfə deyəcəyəm. ABŞ 1999-cu ildə Abdullah Öcalanı niyə Türkiyəyə verdi? O zamankı baş nazir Bülənt Əcəvitin açıqlamasını xatırlayın. O, "niyə bunu bizə verdiklərini anlaya bilmədim" demişdi. Mən öz fikrimi sizə söyləyəcəm. Öcalan 1979-cu ildə Suriyaya gedir. Orada özünə kürd qruplaşması qurur. Dəməşqdə yaşayanda Öcalan kimin nəzarəti altında idi? Əsəd rejiminin, daha açıq desək, Mühabəratın (Suriya kəşfiyyatı - red.). Təbii ki, buna Rusiyanın da təsiri olub. Onu Suriyadan çıxardıb Türkiyəyə təslim etdilər. Nəticədə terror təşkilatı Suriyanın nəzarətindən çıxdı və Amerikanın nəzarətinə girdi. ABŞ PKK-ya nəzarəti Qəndil vasitəsilə həyata keçirir. Öcalanın təşkilata təsiri hələ də həbsdən davam edir, amma artıq Suriya faktoru yoxdur. ABŞ-ın Öcalanı Türkiyəyə verməsinin əsas səbəbi məhz təşkilata nəzarət idi. Təbii ki, 1999-cu ildən sonra ABŞ-ın PKK probleminin həllinə böyük önəm verdiyini görürük. Bu da Öcalanın Türkiyəyə verilməsinin ikinci səbəbidir. Abdullah Öcalanı həbsxanaya yerləşdirməklə PKK problemini həll etmək mümkün deyil", - deyə o bildirib.

İ.Başbuğun bu açıqlamaları ciddi müzakirələrə səbəb olub. Türkiyə ordusunun Afrinin 2 kilometrliyinə qədər irəlilədiyi bir gündə onun bu cür açıqlamalar verməsi ilə bağlı mövqelər birmənalı deyil. Başbuğun fikirlərində həqiqət payının çox olduğunu deyənlər də var, bunun əksini düşünənlər də.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlamasında Amerikanın heç bir dövlətə təmənnasız dəstək vermədiyini söylədi: "Başbuğun sözlərində həqiqət də var, razılaşmadığım məqamlar da. Razıyam ki, Amerika təmənnasız heç bir dövlətə dəstək vermir, hər zaman qarşılığını istəyir. Bu siyasətin və elə həyatın da əsas qanunudur. Mümkündür ki, Amerika 1999-cu ildə PKK liderini Türkiyə kəşfiyyatına təslim etməklə qarşılığında Ankaradan nəsə istəyib. Ancaq mən hesab etmirəm ki, bu qarşılıq məhz PKK-ya nəzarət olub. Amerikanın PKK-ya nəzarət etməsi üçün Türkiyədən icazə almasına ehtiyacı yox idi. Bunu ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi özbaşına da edə bilərdi. Ancaq sual yaranır: PKK-nın indiki idarəçiləri bilə-bilə ki, liderlərini Amerika Türkiyəyə təslim edib, nədən həmin Mərkəzi Kəşfiyyat İdarəsi ilə əməkdaşlığa üstünlük verdilər? Belə çıxıb ki, terrorçular həm öz liderlərini satıblar, həm də marksist ideologiyadan birdəfəlik uzaqlaşaraq düşmən kapitalistlərlə dostlaşmağa qərar veriblər. Başbuğun bir başqa fikrinə də şərikəm. Bəli, Amerikanın Suriyada kürd terrorçulara verdiyini dəstəyin əsas hədəfi Türkiyə deyil, İrandır. Amerika elə etmək istəyir ki, İran Suriya üzərindən Yaxın Şərqdəki dost qruplaşmalara pul və silah göndərə bilməsin. Ona görə də Amerika istəyirdi ki, Suriyanın kürd ərazilərinə nəzarət etsin. Ancaq ABŞ bunu edərkən Türkiyənin maraqlarını nəzərə almadı. Çünki kürd silahlı qruplaşmalar faktiki terrorçudurlar və İrandan əvvəl Türkiyəni təhdid edirlər. Türkiyə Amerikanın kürd terrorçularına artan dəstəyinə seyrçi qalıb Suriya ilə sərhədinin əldən getməsinə seyrçi qala bilməzdi. Amerikalı strateqlər bunu nəzərdən qaçırmışdılar. Ona görə də indi Türkiyə Amerikanın planlarını alt-üst edərək PKK/PYD/YPG üçlüyünü zəiflədir, sərhəddən uzaqlaşdırır. Amerikanın səhvi onda idi ki, Vaşinqton bölgədə İran amilini zəiflətmək istəyirdisə, Türkiyəni qarşısına yox, yanına almalı və kürd terrorçularına dəstək verməməli idi".

**Siyasi şərhçi Əhəd Məmmədli Başbuğun daha çox bir fikri ilə razıdır:** "Bu Başbuğun subyektiv fikridir. Yəni heç bir fakta əsaslanmayan bir mülahizədir. Amma onu da qeyd edək ki, Başbuğ mövqeyinə, keçmişinə görə informasiyalı adamdır. Subyektiv fikrini belə hansısa informasiyaya dayanıb söyləyə bilər, təbii ki, informasiya mənbəyini açıqlamamaq şərti ilə. Başbuğun bu fikrinin bir nüansı ilə tamamilə razıyam, Öcalanı həbs etməklə PKK problemi həll edilməz. Öcalan gərək həbs edilməndə öldürülməli idi. Necə ki, Bin Laden öldürüldü.


İlkər Başbuğ

ABŞ-ın maraqlarına cavab verilməsəydi, Öcalan Türkiyəyə təhvil verilməzdi. Ona görə Öcalan Türkiyəyə təhvil verilməklə PKK tamamilə Amerikanın nəzarətinə keçdi sözlərində həqiqət var. İllər keçdi, gedişat onu göstərdi ki, PKK tam Amerikanın nəzarətindədir. Fikrimcə, PKK-nın ABŞ-ın tam nəzarətinə keçməsi SSRİ-nin dağılması ilə başlandı. Afrin əməliyyatının başa çatdığı vaxtda Tillersonun istefası, yerinə anti-Türkiyə mövqeli Pompeunun təyin edilməsi zamanında Türkiyə ABŞ-a bu mesajı verə bilər ki, Öcalanın həbsi zamanı hansı razılıqlar əldə edilib, bu razılaşmanı davam etməsəniz, biz anlaşmanı pozacağıq və bununla PKK "kartı"nı sizinlə yox Rusiya ilə oynayacağıq. Fikir verin, Başbuğ açıqlamasında "Rusiyadan fərqli Amerikanın Suriyada strategiyası yoxdur" söylədi. Bu Başbuğun dili ilə Türkiyənin Amerikaya önəmli mesajı idi. Həqiqətən ABŞ dövlət qurumları içində bir koordinasiyasızlıq müşahidə edilir. Ən azı, Afrini ABŞ Türkiyəyə uduzdu, bunu hamı gördü, o cümlədən PKK da. Növbə Menbicindir. Vaxtilə Öcalanı Türkiyəyə təhvil verməklə, ABŞ PKK-nı Suriyanın, o cümlədən, Rusiyanın nəzarətindən alsa da, həyatın ironiyası elə gətirdi ki, indiki günlərimizdə, PKK-nın taleyi Suriyada Türkiyə və ABŞ arasında həll edilir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# "Tiflis niyə Bakı ilə olmalıdır" sualına cavab versək...



**Hüseynbala SƏLİMOV**

**Əvvəlcə müdafiə naziri, ardınca da baş nazir Bakıya səfərlərini başa vurdular. Beləcə, düşünmək olardı ki, Gürcüstan konteksindəki olaylara müvəqqəti pauza verildi.**

Amma dərhal elə bu günlərdə dördtərəfli format çərçivəsində, Gürcüstanın da iştirakı ilə xarici işlər nazirlərinin də növbəti toplantısının keçiriləcəyi bildirildi. Deməli, pauzadan danışmaq tezdir, siyasətçilər və diplomatlar intensiv dialoqa və məsləhətləşmələrə ehtiyac duyurlar.

Doğrusu, Gürcüstan mövzusu çoxdan diqqətimizdədir. Təkcə son həftələrdə bu mövzuda bir neçə təhlil yazmalı olduq. Amma adama yenə də elə gəlir ki, hansısa deyilməmiş sözlər qalıbdır.

Xüsusən də ki, baş nazir Giorgi Kvirikaşvilinin Bakıdan hansı təəssüratlarla və ovqatla getdiyini bilmirik. Amma bir daha istərdik ki, o, da və eləcə də digər gürcü siyasətçiləri və diplomatları da bəzi incə mətləbləri unutmasınlar.

Yox, mən heç bir halda bir daha Gürcüstanla Azərbaycanın biri-biri üçün hansı önəm kəsb etdiyini, əlxüsus da indiyədək Azərbaycanın bu ölkə üçün nələr etdiyini və onun müstəqilliyinin güclənməsi, onun ayaq üstə qalması üçün hansı dəstəkləri verdiyini xatırlatmaq fikrində deyiləm - yalnız onların iki etirafı unutmamalarını arzulayıram.

Birincisi vaxtilə E.Şevardnadzenin dilindən səslənmişdi. Bir dəfə E.Şevardnadze demişdi ki, bizim böyük qardaşımız var və o, Heydər Əliyevdir...

Digər bir etirafsa yenə də başqa bir eks-prezidentə, bu dəfə M.Saakaşviliyə məxsusdur. M.Saakaşvili də demişdi ki, mən köməyi, dəstəyi okeanın o biri tərəfində axtarırdım, amma onları Bakıda tapdım!

Düşünürük, bu etiraflarda Azərbaycanın Gürcüstan üçün etdikləri hər şeydən yaxşı kodlaşdırıb. Biz Gürcüstanın avrointeqrasiya meyllərini də yüksək qiymətləndiririk və ona bu yolda səmimi olaraq uğurlar diləyirik.

Di gəl, hətta Qərbin də indiyədək Gürcüstana verdiyi dəstək Bakının dəstəyi ilə müqayisə oluna bilməz, çünki Qərbin də dəstəyi olubsa da, o, daha çox siyasi xarakter daşıyıb - onun maliyyə tərəfləri haqqında gürcü siyasətçiləri özləri belə susmağa üstünlük verirlər...

Ona görə də biz də Gürcüstandan nəsə umanda gürcülər bilməlidir ki, buna mənəvi haqqımız çatır. Yox, demirəm ki, münasibətlərdə hansısa ciddi problemlər var. Belə şey yoxdur. Sadəcə, gürcü siyasətinin region və hətta dünya üzrə trayektoriyasını izləyəndə bəzən sual dolu məqamlar yaranır və istədiyimiz budur ki, belə suallar az olsun.

Təbii ki, bizim daha çox diqqət yetirdiyimiz Gürcüstan-Ermənistan münasibətləridir. Burada bəzən bəzi anlaşılmazlıqlar nəzərə çarpır. Bunu da anlayırıq. Siyasəti ayrı-ayrı insanlar formalaşdırır, onlar isə dini-etnik stereotiplərdən azad olmurlar.

Təəssüf ki, bəzi siyasətçilərdə təkcə bizim təbii ehtiyatlarımız, iqtisadi tərəqqimiz həsəd və qibtə doğurmur, həm də demoqrafik göstəricilərimiz də onları qorxudur; bunlar guya, nə vaxtsa türklərin içində "əriyib" yox olacaqlarından ehtiyat edirlər.

Düşünürük ki, Gürcüstandakı soydaşlarımızın qarşılaşdıqları problemlərin bir qismi, Tiflisin toponimika məsələlərinə izafi həssaslığı, azəri-türk adlarının sürətlə dəyişdirilməsi həm də bununla bağlıdır.

Ermənistana "meyllənməyin" bir səbəbi də budur ki, Tiflis də Ermənistandan ehtiyat edir, çünki ermənilərin bir barmağı da daim qonşu Gürcüstanı, daha doğrusu, Cavaxetiyanı qarışdırmaqdadır. İnanın, bir gün Kremldən komanda gəlsə ki, Cavaxetiya erməniləri də "qalxmalı" və "özünütəyinetmə" davası açmalıdır, bunlar qalxacaqlar, çünki xislətən belə xain xalqdırlar. Həm də bütün Qafqazı utanmaz-utanmaz "tarixi Ermənistan"ın ərazisi sayır və xəyallarında daim onları "azad etmək"lə bağlı "plan"lar qururlar.

Kreml isə Gürcüstandan çox acıqlıdır. Hətta B.İvanişvilinin əlilə M.Saakaşvilini gürcü siyasi mühitindən tamamilə uzaqlaşdırandan sonra da istəklərinə nail ola bilmədilər, gürcülər hələ də Moskvanın az qala, xortdan kimi ehtiyat etdiyi Avropa strukturlarını, xüsusən də NATO-nu Qafqazadək çəkib gətirməkdə israrlıdırlar. Ona görə də Kreml qəzəblidir və hər an Tiflisə qarşı nəsə edə bilər.

Bu səbəbdən də bizim biri-birimizə əvvəlkindən də çox ehtiyacımız vardır və hazırda qismən fərqli geosiyasi müstəvilərdə qərarlaşsaq da, ən azı bölgə içrə maraqlarımız üst-üstə düşür.

Düzdür, Bakı daha GUAM müstəvisində əvvəlki kimi fəal deyil, üstəlik, Avropa səmtində də bir qədər fərqli siyasət yürüdür.

**Amma Azərbaycanın xarici siyasəti çox rasional prinsip və meyarlar üzərində qurulubdur. Bakı hər şeydən əvvəl qonşu ölkələrlə əməkdaşlığa önəm verir. Gürcüstansa belə qonşulardan biri, bəlkə ən vaciblərindəndi.**

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

# "Demokratiya-qarşıdurma", yoxsa "sabitlik-çörək" dilemması

## Dünya boyunca xalqlar sakit həyata üstünlük verir



**Son zamanlar dünyada demokratiyanın böhranlı dövrünü yaşadığı müşahidə edilir. Bir çox ekspertlər hesab edir ki, dünya iri dövlətlərin demokratiyanı iqtisadi və təhlükəsizlik maraqlarından arxa sıraya keçirməsinin fəsadlarını yaşamaqdadır. Elə bir vəziyyət yaranıb ki, dünyanın bir çox xalqları "demokratiya-qarşıdurma", yoxsa "sabitlik-çörək" dilemması qarşısında qalıblar. Bu seçimdə isə üstünlüyün sabitliyə verildiyini söyləmək mümkündür.**

Bu barədə "Yeni Müsavat"a şərhində **AMİP-in beynəlxalq əlaqələr katibi, politoloq Elşən Mustafayev** bildirdi ki, hər zaman bir çox avtoritar, demokratiya olmayan dövlətlərdə böyük dünya gücləri tərəfindən demokratiya sabitliyə qurban verilib, indi də belədir. Hətta bir çox hallarda bunu açıq halda bəyan da ediblər. Əslində isə həmin sabitliyin istənilməsi sırf iqtisadi maraqların qorunması ilə bağlıdır: "Bu maraqlara, strateji planlara xələl gəldiyi vaxt isə demokratiya daha önə çəkilir və artıq sabitlik arxa plana keçirdi. Hazırda bu istiqamətdə heç nə dəyişməyib. Sadəcə, maraqlar dəyişdikcə dövlətlərdə olan rejimlərə münasibət dəyişir. Amma əslində ağıllı yanaşılarsa bu prosesdən hamı öz xeyrini götürə bilər. Yeni avtoritar, diktatura rejimləri altında boğulan xalqlar özləri rejim dəyişikliyi etmək iqtidarında olmayanda məhz kənardan hansısa məqsədlərlə olan təzyiqlərdən maksimum yararlanmağa çalışırlar. Bu, həmişə belə olub və gələcəkdə də belə olacaq. Buna bütün dünyada demokratiyanın böhran keçirməsi kimi qiymət verməzdim. Demokratiya iri dövlətlərin və yerli hakimiyyətlərin yanaşmasının sayəsində "üçüncü sort" dövlətlərdə böhran keçirir. Nə qədər əksini desələr də bu illər ərzində Qərbdə demokratiya, insan haqları, iqtisadi azadlıqlarla bağlı ilə hər hansı ciddi problem yaşanmayıb. Problem obrazlı desək üçüncü sort dünya dövlətlərində, onların hakimiyyətlərindədir. Öz xalqları dil tapmaq əvəzinə Qərbin qaranlıq dairələri ilə qarşılıqlı təmənnalı münasibətlər qururlar və bu maraqlar toqquşanda isə demokratiya olmaması ittihamları ilə üzləşib təzyiq altına düşürlər, xalqdan da hər hansı dəstək ala bilmirlər. Bu zaman sabitlik pozulur. "Demokratiyanı sabitliyə qurban vermək olmaz" bəyanatları səsləndirilir. Bu gün hər şey bu qədər sadədir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

---



# ABŞ-da hakimiyyət böhranı

## Şahin Cəfərli: "Trampın Ağ Evdəki 14 aylıq idarəçilik dövrünü bir kəlmə ilə belə xarakterizə etmək olar: xaos"

**ABŞ Prezidenti Donald Tramp dövlət katibi Reks Tillersonu vəzifəsindən azad etməsinin səbəbini açıqlayıb. Tramp Tillersonla fərqli düşüncədə olduğunu bildirib: "İranla nüvə razılaşması məsələsində fikir ayrılığımız birgə fəaliyyətimizə nöqtə qoydu. İranla anlaşma qorxunc qərar idi. Tillerson isə anlaşmanı tərifləyirdi. Mən deyirdim ki, ya bu qərarı ləğv edək, ya da dəyişək. O isə başqa söz deyirdi. Onun istefası ilə bağlı qərarı təkbaşına verdim".**

D.Tramp dövlət katibi postuna təyin etdiyi Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) rəhbəri Mayk Pompeoya tam etibar elədiyini bildirib, eyni zamanda MKİ postunda gətirəcəyi xanım Cina Haspelə uğurlar diləyib.

R.Tillerson isə Trampın qərarı ilə Tvitterdə tanış olduğunu və daha öncə ona istefa barədə heç nə deyilmədiyini vurğulayıb.

Qeyd edək ki, prezident Donlad Trampla dövlət katibi Reks Tillerson arasında bir çox məsələlərdə ciddi fikir ayrılığı olub. Hətta Tillerson prezidentin ağlına şübhə ilə yanaşdığını bildirib. Tramp isə öz növbəsində ağıllarını yoxlamaq üçün İQ testindən keçməyi təklif edib.

Trampın Amerika prezidenti olduğu müddət bir ildən bir az artıqdır, ancaq öz kabinetində istefaya göndərdiyi məmurların sayı durmadan artır.

Bəs, Tillersonun bu şəkildə istefaya göndərilməsi Tramp administrasiyasında böhran yaşanması kimi qiymətləndirilə bilərmi?

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a bildirdi: "Trampın Ağ Evdəki 14 aylıq idarəçilik dövrünü bir kəlmə ilə belə xarakterizə etmək olar: xaos. Onun prezident kimi fəaliyyətə başlamasından cəmi 1 il 2 aya yaxın vaxt keçib, lakin bu qısa müddətdə o qədər qalmaqal baş verib bəzən elə təsəvvür yaranır ki, Tramp 1,2 il yox, 12 ildir hakimiyyətdədir. Bunun əsas səbəbi odur ki, Tramp dövlət idarəçiliyindən bixəbər adamdır və sistemin içindən gəlməyib. ABŞ-ın siyasi tarixinə nəzər yetirdikdə görürük ki, ilk dövrlərdə prezident kreslosunda dövlətin qurucuları-Müstəqillik müharibəsinin iştirakçıları, Müstəqillik Bəyannaməsinin və Konstitusiyanın müəllifləri, daha sonra isə Konqres üzvü olmuş, nazir, vitse-prezident vəzifələrində çalışmış təcrübəli şəxslər əyləşiblər. Tramp isə ümumiyyətlə, daha əvvəl aktiv siyasətlə məşğul olmayıb və dövlət adamı keyfiyyətlərinə malik deyil. 2017-ci il yanvarın 20-dən, yəni Trampın andiçmə mərasimindən bəri istefaya getmiş və ya göndərilmiş prezident müşavirlərinin, dövlət məmurlarının, digər vəzifəli şəxslərin siyahısını yazası olsaq, uzun bir siyahı alınar. Lakin bu sırada milli təhlükəsizlik üzrə prezident müşaviri Maykl Flinn, Ağ Evin baş strateqi Stiv Bennon, Ağ Ev administrasiyasının rəhbəri Reyn Pribus, Ağ Evin mətbuat katibi Şon Spayser, Federal Təhqiqatlar Bürosunun (FBİ) dirtektoru Ceyms Komi, səhiyyə naziri Tom Prays, Ağ Evin kommunikasiya direktorları Entoni Skamaruççi, Maykl Dubke və Houp Hiks, iqtisadi məsələlər üzrə prezident müşaviri Harri Kon, Ağ Evin dəftərxana müdiri Rob Porter, prezident köməkçisinin müavini Sebastian Qorka və son olaraq dövlət katibi Reks Tillerson kimi şəxslərin adlarını xüsusi qeyd etmək lazımdır. Proses hələ davam edir. Məsələn, Reks Tillersonla eyni gündə onun müavini Stiv Qoldsteyn və prezidentin köməkçisi Con Makinti də istefaya göndərilib. ABŞ mediasının xəbərinə görə, prezidentin milli təhlükəsizlik üzrə müşaviri, general Herbert Makmasterin də növbəsi çatıb və yaxın günlərdə onun da vəzifədən azad olunacağı gözlənilir. Veteranların işləri üzrə nazirin də işdən çıxarılacağı bildirilir. 14 aya yaxın müddət ərzində prezident administrasiyasının əməkdaşlarının 45 faizi işdən gedib və ya uzaqlaşdırılıb. Bu, çox böyük rəqəmdir. Bundan başqa, Dövlət Departamenti başda olmaqla, dövlət strukturlarında çoxlu vakant vəzifələr qalır və bu vəzifələr üçün namizədlər hələ təqdim olunmayıb".

**Ş.Cəfərli qeyd etdi ki, Tramp prezidentliyə namizədliyini irəli sürməzdən əvvəl televiziyada "Namizəd" adlı raliti-şou aparırdı. Şou iştirakçıları 1 il ərzində yarışırdılar və hər epizodda bir iştirakçı yarışı tərk edirdi. Tramp həmin iştirakçıları "Sən qovuldun!" (You are fired) sözü ilə yola salırdı. İndi Tramp dövləti də həmin şou-proqram kimi idarə etməyə çalışır:** "Bu, ABŞ kimi ciddi dövlət üçün yaxşı hal deyil. Amma prezidentdən qaynaqlanan bu xaotik görüntüyə baxmayaraq, ABŞ dövlət aparatı fəaliyyətini davam etdirir. Yəqin ki, bu vəziyyət oturuşmamış dövlətlərdə yaransaydı, orada qeyri-sabitlik və müəyyən çaxnaşmalar müşahidə edilərdi. Lakin ABŞ güclü institutlara malik oturuşmuş dövlət olduğu üçün prezidentin təcrübəsizliyi və sistemə yad adam olması ciddi fəsadlara gətirib çıxarmır".

**Politoloq onu da dedi ki, Tillerson ABŞ-ın İranla imzalanmış nüvə anlaşmasından çıxmasının əleyhinə idi. Onun yerinə gələcək olan CİA direktoru Mayk Pompeo isə bu məsələdə sərt mövqe tutur. Ona görə də, ABŞ-ın İrana qarşı siyasətinin daha da sərtləşəcəyi aydın məsələdir. Rusiya ilə bağlı siyasətdə də yumşalma gözləməyə dəyməz:** "Pompeo hətta Trampın mövqeyinə zidd olsa da, Rusiyanın ABŞ-da 2016-cı il prezident seçkilərinə müdaxilə etdiyini dəfələrlə açıq bildirib və kəşfiyyatın Obama dövründə bu barədə verdiyi ortaq raportu dəstəkləyib.

Maraqlı bir detal var ki, "soyuq müharibə" dövründə Putin kəşfiyyatçı kimi Almaniyanın şərqində, Pompeo isə hərbçi kimi Almaniyanın qərbində xidmət edib.

Tillerson Türkiyə ilə müttəfiqlik əlaqələrinin qorunmasına tərəfdar idi. Hətta Suriya (Menbiç) ilə bağlı iki tərəf arasında əldə olunmuş prinsipial razılığın Çavuşoğlunun martın 19-da Vaşinqtonda Tillersonla görüşündən sonra açıqlanacağı gözlənilirdi. İndi bu səfərin baş tutub-tutmayacağı qeyri-müəyyən qalıb. Pompeonun Türkiyəyə münasibətinə gəldikdə isə, onun vəzifəyə təyin olunmazdan bir müddət əvvəl "Türkiyə də İran kimi totalitar islamçı diktaturadır" deyə tvit yazdığı, bir qədər sonra bu tviti sildiyi məlumdur. Lakin CİA direktoru təyin olunduqdan sonra o, ilk səfərini Türkiyəyə etdi.

CİA direktoru vəzifəsinə təyin olunacağı gözlənilən Gina Haspel də maraqlı şəxsdir. Bu xanım haqqında müxtəlif iddialar var. Onun CİA-in bəzi ölkələrdəki gizli həbsxanalarına rəhbərlik etdiyi, hətta işgəncə üsulunu dəstəklədiyi bildirilir. (Yeri gəlmişkən, Pompeo da terrorda ittiham olunanların dindirilməsi zamanı işgəncələrin tətbiqinə tərəfdardır.) Haspelin oğlunun da CİA əməkdaşı olduğu və Ukraynada separatçılıq başladığı zaman ora göndərildiyi, Slavyansk şəhərində naməlum qrup tərəfindən girov götürüldüyü və CİA direktoru Con Brennanın şəxsən Ukraynaya gedib onu xilas etdiyi barədə də iddialar var, nə qədər doğrudur, deyə bilmərəm...

Bir sözlə, Tramp öz komandasını hələ indi qurmağa başlayıb".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

**İşğal altındakı Dağlıq Qarabağda oyuncaq rejimin başçısı, Azərbaycan həbsxanasının darıxdığı Bako Saakyan rəsmi Bakının etirazlarına və notasına rəğmən, ABŞ-a gedib. Yəni, Amerika bu separatçı-quldura viza verib, onun öz ərazisinə sərbəst girməsinə hər hansı əngəl törətmədi. Bu da o anlama gəlir ki, Vaşinqton Azərbaycan torpaqlarında beynəlxalq hüquqa görə, tam qanunsuz mövcud olan bir rejimin qanunsuz rəhbərini faktiki, qanunsuz saymır.**



# ABŞ-ın Qarabağ "ədaləti" - Kremlə "ayı xidməti"

## Azərbaycan iki vasitəçinin "ikili standartı" ilə üz-üzə; Bakının notasına rəğmən, separatçı Bako Saakyan Amerikada peyda olub; **politoloq:** "Ermənistan son xəbərdarlığı nəzərə almalıdır... onun ikinci belə şansı olmayacaq"




**Bu, elə Azərbaycana, onun ərazi bütövlüyünə və suverenliyinə münasibətdir ki var. Eyni zamanda ABŞ-ın separatçı rejimlərə və separatçılara ikili yanaşmasının parlaq təzahürüdür. Çünki biz Krımın ilhaqına görə Rusiyaya qarşı ABŞ-ın tətbiq elədiyi sərt sanksiyaların da şahidiyik.**

Maraqlıdır, görəsən politoloq Elxan Şahinoğlunun dediyi olsaydı, yəni Bako Saakyan İnterpol xətti ilə beynəlxalq axtarışda olsaydı (niyə də buna getməyək?), o zaman yenə o, Amerikada peyda ola bilərdimi? Yaxud getsəydi, orada saxlanardımı?

*****

Bu arada ABŞ-ın Azərbaycandakı səfirliyi nəhayət ki, Bakının notasına cavab verib. Gözlənildiyi kimi, cavab şablon xarakter daşıyır. "Amerika Birləşmiş Ştatları Dağlıq Qarabağla bağlı mövqeyi dəyişməyib. Nə ABŞ, nə də digər ölkələr, o cümlədən Ermənistan Dağlıq Qarabağ rejimini de-fakto tanımır. ABŞ ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətini dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin "Helsinki Yekun Aktı"nın prinsipləri əsasında danışıqlar yolu ilə həll olunması istiqamətində fəaliyyətini davam etdirəcək" - açıqlamada deyilir.

Doğrudur, ABŞ de-fakto qondarma rejimi tanımır, amma de-fakto bu rejimin başçısı indi Amerikadadır. Orada qondarma "DQR" adından çıxış edir, özünü "Arsax prezidenti" kimi aparır, təqdim edir, görüş keçirdiyi zallarda "DQR"in bayraq adlandırılan əskisini asdırır, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi əleyhinə hədyanlar söyləyir.

Beləcə, Dağlıq Qarabağ konflikti həm də böyük güclərin münaqişəyə ədalətsiz, beynəlxalq hüquqa həqarətli yanaşması nəticəsində uzanmaqadır. Rusiyanın mövqeyi bəlli. Ermənistan onun bölgədə yeganə hərbi qalası olduğundan, Moskva Qarabağ məsələsində işğalçının tərəfindədir. Amma ABŞ-ın ki, regionda, Ermənistanda hərbi bazası yoxdur. Heç bir ciddi təbii qaynağı və geosiyasi əhəmiyyəti olmayan Ermənistan ondan ötrü iqtisadi, energetik dəyər də daşımır, nəinki Azərbaycan. Di gəl, Amerika da sanki işğalçı üçün əsir, ona reveranslar edir, birbaşa və dolayısıyla erməni separatizminə sponsorluq edir, işğal altındakı Dağlıq Qarabağda qanunsuz, kriminal "hökumətə" hər il maliyyə yardımları ayırır. Bununla da əslində Rusiya maraqlarına işləmiş olur, Moskvaya "ayı xidməti" göstərir. Hər necə olmasa, münaqişənin qalması ən çox Kremlin maraqlarına uyğundur.

*****

"Biz dondurulmuş münaqişələrin həlli ilə bağlı konkret həll yolu tapmalıyıq. Bu, konkret olaraq Moldovanın, Azərbaycanın, Gürcüstanın və Ukraynanın məruz qaldığı münaqişələrə aiddir". Bu fikri Moldovanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Sergey Sirbu ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun Bakıda keçirilən beynəlxalq konfransında deyib. O bildirib ki, İpək Yolu Dəstək Qrupunun prioritetlərindən biri bu olmalıdır: "Biz artıq konkret addımlar atmalıyıq. Əks halda, bu münaqişələr İpək Yolu üzərində birgə layihələrə ciddi əngəllər yaradacaq. İpək Yolu iqtisadi kəməri imkan verəcək ki, iqtisadi layihələr fəallaşsın. Bu, Dnestryanı əraziyə də aiddir. Moldova hökuməti bütün rıçaqlarını işə salır ki, Dnestryanı ərazini də əhatə etsin. Amma bəzi siyasi suallar var ki, bu işlərin nəticə verməsi üçün tam həll olunmalıdır. Mən ümid edirəm ki, İpək Yolu layihəsi bu problemlərin həllinə dəstək verəcək".

Göründüyü kimi, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna ərazisindəki separatçı ocaqlar müstəsna olaraq Rusiyanın maraqlarına işləyir, Qərbə inteqrasiya layihəsi olan Böyük İpək Yolunun da normal işləməsinə əngəl yaratmaq niyyəti güdür. O zaman nədən ABŞ bu ocaqların söndürülməsinə deyil, Rusiya kimi qalmasına yardım edir? Hər halda, separatçı Bakoyanın Amerikada rahat şəkildə peyda olub görüşlər keçirməsi belə bir qənaəti yaradır və əsla konfliktin ədalətli həllinə kömək eləmir.

*****

**İstənilən halda, Azərbaycan yaranmış vəziyyətdə öz hərbi qüdrətini artırmaq və əlverişli fürsət düşən kimi öz ərazilərini silah gücünə azad eləmək haqqını özündə saxlayır. Martın 12-də başlayan və 17-dək sürəcək genişmiqyaslı hərbi təlimlərdə əsas hədəflərdən biri də elə budur - müharibəyə hər an hazır olmaq. Aydındır ki, Rusiyaya, ABŞ-a arxayın olan düşmən tərəf xoşluqla torpaqlarımızdan çıxan deyil.**

Deyəsən, erməni tərəfi də fərqindədir ki, Azərbaycan gec-tez öz ərazilərini güc yolu ilə azad eləmək üçün hərəkətə keçəcək. Azərbaycanın son hərbi təlimlərindən dolayı yaşanan əndişə həm də bununla bağlıdır.

Nəinki Azərbaycan ordusunun iki gündür davam edən irimiqyaslı təlimləri, eləcə də Türkiyə ordusunun Suriyanın şimalındakı Afrin bölgəsini PKK/YPG kürd birləşmələrindən təmizləmək üçün apardığı hərbi əməliyyatlar Ermənistanda ciddi narahatlıqla izlənir.

Belə ki, Ermənistan Demokrat Partiyasının lideri Aram Sərkisyan İrəvanda jurnalistlər qarşısına çıxıb və Türkiyənin Naxçıvandan platsdarm kimi istifadə edərək "Cənubi Qafqazda möhkəmlənmək niyyətləri" haqda danışıb (Virtualaz.org). Sərkisyanın fikrincə, Türkiyə ordusunun Afrinə müdaxiləsi və başqa ölkənin ərazisinə hərbi müdaxiləyə görə beynəlxalq ictimaiyyətin Ankaraya adekvat reaksiya verməməsi Ermənistan üçün türk təhdidini artırır.

**"Digər tərəfdən, aydındır ki, Dağlıq Qarabağda hərbi əməliyyatlar bərpa olunarsa, Azərbaycan Türkiyənin birbaşa dəstəyi ilə Naxçıvan ərazisindən Ermənistana zərbə endirməkdə tərəddüd etməyəcək. Nəzərə alanda ki, muxtar respublikadan İrəvana qədər məsafə cəmi 80 kilometrdir, bu məsafə reaktiv yaylım atəşi sistemləri üçün tamamilə əlçatandır", - Sərkisyan deyib.**

Partiya lideri xatırladıb ki, Naxçıvanda müntəzəm olaraq Türkiyə və Azərbaycan birgə təlimləri keçirilir. "Mətbuatda belə şayiələr dolaşır ki, Türkiyə Naxçıvanda daimi baza yarada bilər. Ermənistan XİN Naxçıvan istiqamətindən qaynaqlanan təhdidlə bağlı çox zəif işləyir. Hansı ki, çoxdan bu məsələ ilə bağlı KTMT-yə və Rusiyaya müraciət etmək lazım idi", - deyə o əlavə edib.

Ermənistanın keçmiş müdafiə naziri Vaqarşak Arutyunyan da bu fikirlərlə razıdır və hesab edir ki, Naxçıvan doğrudan da Türkiyə üçün Cənubi Qafqaza və Orta Asiyaya "sıçramaq" üçün tramplin ola bilər.

*****

Qeyd edək ki, Azərbaycan Ordusu doğrudan da son illər Naxçıvana böyük həcmdə hərbi qüvvə cəmləşdirir. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu ən yeni hərbi texnika və silahlarla, o cümlədən "Smerç" reaktiv yaylım atəşi sistemləri, "Solntsepyok" TOS-1A ağır odsaçanları, Türkiyə və İsraildən alınan, 120-150 km mənzilli raket sistemləri, T-90S tankları və digər yeni hücum texnikası ilə silahlanıb. Aydın məsələdir ki, Naxçıvandakı bu fakt Rusiyadan aldığı "İsgəndər" raketləri ilə Azərbaycanı hədələyən Ermənistan üçün ciddi çəkindirici amil olmalıdır. Çünki mümkün hərbi əməliyyatlar zamanı Ermənistanın bütün ərazisi Azərbaycan ordusunun hədəfində olacaq.

"İrəvan hazırda böyük təşviş içərisindədir və bunu çox ağrılı şəkildə yaşayır". Bunu isə Axar.az-a Ermənistan XİN-in Azərbaycanda keçirilən hərbi təlimlə bağlı açıqlamasını şərh edən politoloq Tofiq Abbasov deyib. Politoloq bildirib ki, son hərbi təlimlər erməni qoşunlarının nə qədər gec deyil, Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmasına dair İrəvana mühüm xəbərdarlıqdır.

"Ermənistan faktiki olaraq problemin həllində elə maneələr törədir ki, bu da prinsip etibarilə Azərbaycana güc tətbiq etmək üçün əsaslar yaradır. Bunu İrəvan da çox gözəl bilir. Bu baxımdan neçə gündür Ermənistan mətbuatında isterika başlayıb və sözün əsl mənasında işğalçı ölkədə ah-vay yaşanır. Azərbaycan son illər mütəmadi olaraq genişmiqyaslı təlimlər keçirir. Bakı təlimlərdən öncə MDB ölkələrini, qonşu dövlətləri və ATƏT-i xəbərdar edirsə, deməli, Azərbaycan bu prosesdə bütün prosedurlara riayət edir. Ermənistanın yalançı hay-küyü ondan xəbər verir ki, İrəvan həqiqətən də yaşadığı qorxunu cilovlaya bilmir və şikayətçi formasında çıxış etməkdən başqa çarəsi yoxdur", - deyə politoloq qeyd edib.

Onun sözlərinə görə, əslində düşmənin qorxusunu büruzə verməsi Bakının xeyrinə işləyir: "Ermənilər bundan öncə Azərbaycanın öz müttəfiqləri - Türkiyə və Gürcüstanla keçirdiyi birgə təlimlərdən də qorxuya düşmüşdülər. Bu, o deməkdir ki, müharibə olacağı təqdirdə, Ermənistan şəksiz uduzacaq. Ona görə də hesab edirəm ki, Ermənistan Azərbaycanın son xəbərdarlığını nəzərə almalı və işğal etdiyi Azərbaycan torpaqlarını dərhal boşaltmalıdır. Əks təqdirdə İrəvanın ikinci belə bir şansı olmayacaq".

**Yada salaq ki, ordumuzun genişmiqyaslı təlimindən qorxuya düşən Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Tiqran Balayan "Azərbaycanda hərbi təlimlər təşkilatın üzvlərinə əvvəlcədən məlumat vermədən, ATƏT-in öhdəliklərinin açıq şəkildə pozulması ilə aparılır" demişdi. Azərbaycan XİN isə əvvəlcədən planlaşdırılan təlimlərlə bağlı ATƏT-in məlumatlandırdığını bəyan edib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018



# Ucuz ölkədə pul xərcləmək...

Samir SARI

**Adam bilmir qürur duysun, yoxsa xəcalət çəksin - ölkəmiz dünyanın ən ucuz 50 ölkəsinin sırasında yer alıb.**

Bu xüsusda ona görə qürur duymaq olar ki, hər halda dükan-bazardakı ucuzluq yaxşı şeydir, dünya ictimaiyyəti də belə ölkələri sevir.

Amma bu siyahıdakı qonşularımızın eyzən kasıb ölkələr olması adama istər-istəməz xəcalət verir.

Qonşularımıza baxın: Hindistan, Pakistan, Tunis, Zambiya, Ukrayna, Meksika, Misir, Banqladeş, Gürcüstan, Moldova, Belarus, Qazaxıstan, Ermənistan, Makedoniya və b.

Düzdür, siyahıda Səudiyyə Ərəbistanı da var, amma hamımız bilirik ki, onlardakı ucuzluq varlılıqdandır, kasıbçılıqdan deyil.

Bu reytinq cədvəlini tərtib edərkən beş əsas göstərici nəzərə alınıb: alıcılıq qabiliyyəti, mənzil kirayəsinin, qida məhsullarının qiyməti, mal və xidmətlərin dəyəri, restoran və barlardakı qiymətlər.

Dünənəcən hamımız deyirdik ki, bizim xidmət və iaşə işçilərimiz əcnəbi görəndə dərilərini soymaq istəyirlər. Heç də elə deyilmiş, üstəlik, bizimkilər əbəs yerə bu niyyətə düşməyiblərmiş. Görünür, bizdə informasiya var ki, ölkəmizə yeyib-içməyə, kef-damağa gələn əcnəbilərin öz ölkəsində adi hamburqer 15-20 avrodur. Rəvadırmı ki, o, gəlib qara qoçun antrekotunu 6-8 manata (3-4 avroya) dişinə çəksin?

Hamburqer demişkən, o gün xaricdə yaşayan bir simsar adamla FB-də görüntülü danışırdıq, söz-sözü necə gətirdisə, dedi ki, bir müddət öncə İsveçrədəydik, acmışdıq, dörd nəfər hərəyə bir hamburqer yedik, 80 avro pul verdik. Dəqiqləşdirdim: "80 avro?" Təsdiqlədi: "80 avro". "Bizim pulla 160 manat?" "Sizin pulla 160 manat". "Vay-vay, soyğundur ki". "Ay-hay, burda belədir, bir cüt coraba 6 avro verirík".

Sağollaşandan sonra oturub hesabladım, biz 160 manata nələr edə bilərik. Məsələn, 160 manatın 130-na 10-12 kilo ət verən toğlu ala bilərik, yerdə qalan 30 manata da göy-göyərti, pomidor-xiyar, pendir, çörək, 3-4 litr də kola-mola. 15 adam oturub yeyib-içər.

12 manata isə "Sədərək" yarmarkasından 15-20 cüt corab almaq olar, hərəsini iki həftə geysən, bir il bəsindir.

Bax, görünür, bizi buna görə "ucuz ölkələr" qrafasına salıblar.

Belə bir rəy də var ki, keşkə, bahalı ölkələrdə (İsveçrə, Norveç, Fransa, Kanada, ABŞ, İngiltərə, Yaponiya, Almaniya, Hollandiya və bu kimi başqaları) olan maaş-qonorardan, məvacibdən bizdə də olaydı, biz də corabı 6 avroya ala biləydik.

Burası da var. Əslində elə olsa pis olmazdı. Onda ayda 5-6 min avro qazanardıq, yarısını cibimizə qoyub cumardıq ucuz ölkələrə (Gürcüstana, Türkiyəyə, Qazaxıstana, İrana) 15 gün gəzib, şellənib qayıdardıq öz bahalı ölkəmizə.

Hazırda o bahalı ölkələrin əhalisinin əksəriyyəti elə edir. Orta məktəbdə xadimə işləyən qadın yay istirahətini Antalyada, Bodrumda keçirir. Nə var ki... Məzuniyyət pulunu götürüb gəlir. Biz isə gərək ilboyu işləyib tətil pulu yığaq, yığa bilsək, yuxarı məsrəf çıxmasa, gedək.

*Bilmirəm qədirbilən xalqımız seçim qarşısında qalsa, hansı ölkədə yaşamağı seçərdi - bahalı ölkədə, yoxsa ucuz ölkədə?*

Amma onu bilirəm ki, bahalı ölkədə yaxşı yaşamaq tənbəl, ixtisassız, əlindən bir iş gəlməyən adamların xörəyi deyil. Adam gərək belinə motor qoyulmuş kimi işləsin, çalışsın. 5 min avronu adama durduğu yerdə vermirlər. Heç o 5 min avrodan da o biri aya 500 avro keçirmək hər adama qismət olmur, hamısı xərclənib gedir.

Hərçənd ucuz ölkə də bir şey deyil, badımcanın, lobyanın, pomidorun bir kilosunun qiyməti 10 qəpik, ətinki 1 manat qalxan kimi millət həyəcanlanır, bu aydan o aya pul çatdıra bilməyəcəyindən qorxur.

Bu xüsusda vaxtilə "Çeşmə"çi Əsgər Əhmədin danışdığı bir lətifəvari əhvalat yada düşür. Ağdamda balaca bir idarənin müdiri varmış, ömrü boyu rayondan kənara çıxmayıbmış. Bir gün yolu Yevlağa düşür, oturub bir pavilyonda yemək yeyir, hesabı verəndə fərq edir ki, Ağdamdakından iki dəfə ucuz yeyib. Adam gərnəşib deyir ki, pulu Ağdamda qazanasan, Yevlaxda xərcləyəsən...

**İndi onun sözü olmasın, pulu Norveçdə qazanasan, Bakıda, "8-ci kilometr"də xərcləyəsən...**

# Ermənistanı ayaqda saxlayan müsəlman ölkəsi-Azərbaycan İranla necə davranmalı?

## Elşən Mustafayev: "İran Azərbaycana din qardaşı olaraq normal münasibət bəsləməyib"

**Cənub qonşumuz İran ermənipərəst siyasətindən əl çəkmir. Siyasi istiqamətdə olduğu kimi, iqtisadi sahədə də rəsmi Tehran təcavüzkar ölkənin yaşaması üçün əlindən gələni edir və bəzi hallarda bunu açıq şəkildə büruzə verir. Sanki İran bir müsəlman ölkəsi olaraq, digər qonşuluğunda yerləşən, dövlətlərarası əlaqəsi yüksək səviyyədə olan müsəlman ölkəsi Azərbaycanın ərazilərinə edilən təcavüzü unudur.**

Bu il 26-27 fevral tarixində İrəvanda keçirilmiş İran-Ermənistan hökumətlərarası müştərək iqtisadi komissiyanın 15-ci iclasında İran energetika naziri Reza Ərdəkanian ölkəsinin Ermənistana 180 milyon nəfərlik Avrasiya İqtisadi İttifaqı bazarına pəncərə kimi baxdığını qeyd edib. O, "iki ölkə xalqlarının minilliklər boyu biri-birinin yanında əmin-amanlıq şəraitində" yaşadığını qeyd edərək İranla Ermənistan arasındakı iqtisadi əlaqələrin də siyasi əlaqələr kimi inkişaf edəcəyinə ümidvar olduğunu söyləyib.

Bu faktları boşuna xatırlatmırıq. Bunlar cənub qonşumuzun Ermənistanı dirçəltmək üçün göstərdiyi çabalara misaldır. Sirr deyil ki, Ermənistana ayaqda qalmaq üçün siyasi əlaqələrdən daha çox iqtisadi əlaqələrinin digər dövlətlərlə genişləndirilməsi əsasdır. Bunu isə Rusiya ilə yanaşı ən çox İran edir.

Rəsmi Bakının İranı bu mövqeyinə təsir etmək üçün nələr etməli olduğu, artıq sərt mövqe sərgiləməsinin zamanının çatdığı, eləcə də, gələcəkdə rəsmi Tehranın bu siyasətini davam etdirməmək üçün hansı addımları atması ilə bağlı ən müxtəlif mövqelər var.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev** hesab edir ki, hazırda İran-Ermənistan münasibətlərinin hansı səviyyədə olmasından asılı olmayaraq, bizim buna münasibət bildirməyimizin heç bir əhəmiyyəti yoxdur: "Azərbaycan istər rəsmi şəkildə, istərsə də ictimai təşkilatlar vasitəsilə işğalçı dövlətlə isti münasibətlərə görə İranı həmişə tənqid, hətta ittiham da edib. Əvəzində isə İran bu münasibətə heç bir əhəmiyyət verməyib, bəzi hallarda Azərbaycanı qıcıqlandıracaq addımlar atıb. Bunun tarixi səbəbləri var. İran nə şah zamanında, nə də ki, İslam inqilabından sonra Türkiyə və Azərbaycana din qardaşı olaraq normal münasibət bəsləməyib. Özümüzə açıq şəkildə deməsələr də, əsassız



olaraq hər iki dövləti özləri üçün təhlükə hesab ediblər. Rusiya Ermənistanla olan yaxın münasibətlərini də heç vaxt gizlətməyib. İran buna məcbur qalmayınca, bu siyasətindən əl çəkməyəcək. İran uzun müddətdir ki, beynəlxalq sanksiyalarla üz-üzədir. Sanksiyaların nəticələri isə İranı ağır duruma salıb. Belə gedərsə, gələcəkdə tam təcrid olunma təhlükəsi qaçılmaz olacaq. Bu səbəbdən Rusiya ilə münasibətlərin genişləndirilməsi, onun yaratdığı iqtisadi ittifaqlarla əməkdaşlıq etməsi mövcud olan böhranın dərinləşməsinin qarşısını almağa hesablanıb. Avrasiya İttifaqı vasitəsilə iqtisadi layihələr həyata keçirtmək istəkləri də buna görədir. İran yaxşı bilir ki, Ermənistan Rusiyanın forpostudur. Orada hər hansı iş görəcəksə, ilk öncə Rusiya buna razılıq verməlidir. Belə görünür ki, razılıq da verilib. Amma bir məsələni unudurlar ki, indiyə qədər Rusiya heç bir dövləti sona qədər müdafiə etməyib. İraq və Liviya dünyaya meydan oxuyanda, eyni zamanda, sanksiyalarla üz üzə qalanda Rusiya ilə dostluq münasibətlərində idi və dəstəklənirdi. Hətta bir çox addımlarını da onunla razılaşdırırdı. Sonda isə Rusiya həmin dövlətləri müdafiə etməyərək tək başına qoydu. Nəticə isə hamıya məlumdur. Hətta əminəm ki, gec-tez Suriyada Əsədi də həmin gün gözləyir. Hesab edirəm ki, İran regionda Azərbaycan və Türkiyə ilə yaxından əməkdaşlıq etməli, səmimi dostluq münasibətləri qurmalı idi. Bu halda hər iki dövlətdən özlərinə qarşı xəyanət görməyəcəkdi. İndiki halda Ermənistandan və Rusiyadan hansı sədaqəti alacaq, onu zaman göstərəcək. İran dövləti hər vəchlə sərhədlərindən kənarda fəaliyyət göstərməyə, özləri demişkən nəfəslik açmağa çalışır. Qərb və ABŞ-la sanksiyalar səbəbindən bu mümkün olmadığı üçün postsovet məkanı ilə əməkdaşlıq etməyə məcburdur. Rusiya-Qərb münasibətlərinin gərgin olduğu bir vaxtda düşmənimin düşməni dostumdur deyiminin də burada rolu var. İranın işğalçı Ermənistan ilə iqtisadi və siyasi baxımdan yaxınlaşması əvvəldən də gözlənilən idi və buna bizim və Türkiyənin mane olması mümkün deyil. Ən azından İran bu məsələdə alternativ fikri qətiyyətlə rədd edir. Baxmayaraq ki, islam dövlətidir, belə məsələlərdə siyasi-iqtisadi qazancın dindən daha vacib olması anlamına gələn addımlar atır. Hələ o da məlum deyil ki, qazanc olacaq, ya itki".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# "Bitkoinin dəyəri yoxdur, balon hər an partlaya bilər"

**"Bitkoin balonunun partlaması ehtimal deyil, zaman məsələsidir".**



"Report" xəbər verir ki, bu xəbərdarlıqla Avropanın ən böyük sığorta şirkəti - "Global Allianz"ın investisiya departamenti çıxış edib.

"Blokçeyn texnologiyası investorlara böyük fayda gətirsə də, kriptovalyutaların heç bir dəyəri yoxdur", - deyə 500 mlrd. avro (620 mlrd. ABŞ dolları) məbləğində vəsaiti idarə edən "Allianz Global"dan bildirilib.

Şirkətin qlobal iqtisadiyyat və strategiya şöbəsinin rəhbəri Ştefan Xofrixter (Stefan Hofrichter) isə qeyd edib ki, bitkoinin real qiyməti 0-dır: "O, səhm, istiqraz və kağız pullardan fərqli olaraq hec nə ve hec kimlə təmin edilməyib, bu gün aktiv gəlir də gətirmir. Kimsə kriptovalyutaları qızılla müqayisə edir. Amma, qeyd etməliyəm ki, qızıl 2 500 ildir ki, yığım vasitəsi kimi mövcuddur. Buna görə düşünürəm ki, bitkoin-maniya yaxın vaxtlarda bitəcək və bu balon partlayacaq".

Bu açıqlamalardan sonra bitkoinin qiyməti bir qədər azalaraq 8 700 dolara düşüb.

"Report"un analitik qrupu hesab edir ki, martın 19-20-də keçiriləcək G20 zirvəsi başa çatana qədər bitkoin satışları davam edəcək, lakin kriptovalyuta bazarı yox olmayacaq.

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

# Yəhudi həkimin "peyvənd vurdurmayın" xəbərdarlığı qalmaqal yaratdı

## Vaqif Qarayev: "Təbabəti az qalıb biznes poliqonuna çevirsinlər..."

**İsrailli həkim Lev Levit publika.az-a müsahibəsində körpələrə vurulan peyvəndlərin bəzən sərt reaksiyalara səbəb olduğunu bildirib. Onun sözlərinə görə, bu, hətta uşaqların şikəst qalması ilə də nəticələnir. Həkimin sözlərinə görə, uşaqlara peyvənd vurdurmağın heç bir faydası və köməyi yoxdur.**

"Yaş yarımına qədər uşağa üç, beş valentli vaksinlər də daxil olmaqla, 30-a yaxın peyvənd vurulur. Nəticədə görürük ki, uşaq vurulan peyvəndə qəribə, bəzən də sərt reaksiyalar verir, öskürək, qızdırma, qıcolma ilə müşayiət olunan bu durum bir sıra patologiyalara yol açır. Birdən-birə validеyn fərqinə varır ki, uşağın inkişafı geriləyir, aqressivləşir, danışanda gözümüzə baxmır, başını divara çırpır və s. Valideyn də tapa bilmir ki, səbəb nə ola bilər. Bəlkə vurdurduğunuz peyvəndlərdir? Heç düşünmüsünüz bu haqda? Pediatr isə sakitləşdirir, bir az da səbir edin, gözləyin, hər şey qaydasına düşəcək...

Vəziyyət isə pisə doğru dəyişir. Qoyun, övladınız qızılca, suçiçəyi keçirsin. Axı bu xəstəliklər serebral iflicdən, autizmdən daha asan müalicə olunur" - həkim deyib.

Qeyd edək ki, bundan əvvəl də dəfələrlə mətbuatda, sosial şəbəkələrdə uşaqlara vurulan peyvəndlərin tərkibinin dəqiq aydın olmaması, bir çox hallarda isə təhlükəli həddə kimyəvi maddələrlə zəngin olması haqda məlumatlar yayılıb. İddialara görə, ölkəmizə gətirilən bəzi peyvəndlərin tərkibindəki konservant kimi istifadə olunan ağır metallar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təyin etdiyi normadan dəfələrlə çoxdur. Bu baxımdan peyvəndlərin böyük bir "bəla" olduğunu və uşağın sağlamlığı naminə onlardan mütləq imtina etmək lazım olduğunu düşünən kifayət qədər valideyn var. Avropalı alimlərin fikrincə isə peyvəndlərin tərkibində civənin normadan on dəfələrlə yüksək olması dəhşətli faciələr yarada bilər. Civə insan orqanizmində yığılaraq, onun bütün orqan və toxumalarına təsir göstərir və müxtəlif xəstəliklər yaradır. Ən çox fəsadlar isə sinir sisteminə yetirir.



Peyvəndin ziyanı haqda rusiyalı alimlər daha çox danışır. Məsələn, **görkəmli virusoloq Qalina Çervonskaya**nın sözlərinə görə, "peyvənd insan təbiətinə qarşı doğum evində başlayan terrordur". Onun sözlərinə görə peyvəndlərin insanın immunitet qabiliyyətinin sıfıra endirilməsinə səbəb olduğu aydındır: "Yəni, orqanizm bütün xəstəliklərə qapını açıb müdafiəsiz gözləmə mövqeyinə keçirilir. Əgər siz öz uşağınızı peyvənddən heç olmasa, 3-5 ilə qədər qoruya bilmisinizsə, o zaman sizə təzim etmək lazımdır. Siz hər bir uşağın fərdi təbii qoruma qüvvələrinin inkişaf etməsinə imkan verəcəksiniz. Lazımsız maddələri bədəninə daxil edərək, uşağınızı şikəst etməyəcəksiniz". Mütəxəssis deyir ki, peyvəndlərin tərkibindəki maddələr orqanizmdə ömür boyu qalır və immuniteti məhv etməklə məşğul olur.

Alimlərin digər böyük əksəriyyəti isə peyvəndlərin uşaqlar üçün çox vacib olduğunu, peyvəndsiz uşaqların daha çox xəstələndiyini bildirir.

Beləliklə, uşaqlara peyvənd lazımdırmı? Hansı hallarda peyvənd fəsad törədə bilir? Mövzu ilə bağlı **həkim Vaqif Qarayev** "Yeni Müsavat"a danışdı: "Peyvəndlə ötüşən xəstəliklərin hamısı kifayət qədər yoluxucu, yəni epidemiya yarada bilən, eyni zamanda ölüm faizi yüksək olan xəstəliklərdir. Dünyada çox nəhəng laboratoriyalar var ki, yoluxucu xəstəliklərlə bağlı çalışırlar. Bu cür xəstəliklərin tibbi ədəbiyyatda profilaktikası deyilən anlayış var. Bütün dünya tibb ədəbiyyatı peyvənd altına düşən xəstəliklərin profilaktikası üçün, yəni uşaqların bu xəstəliyə düçar olmaması üçün vaksinasiyanı məsləhət görürlər. Üstəlik, bu ay və ya illərlə aparılan təcrübə deyil, neçə əsrdir ki, davam edir. Məni bir məsələ maraqlandırır. Həkimlərdən soruşanda ki, "məlum xəstəliklərə yoluxmama üçün nə etməliyəm", həkimlər nə cavab verir? Onda belə çıxır ki, həmin həkimlər oxuduqları tibbi ədəbiyyatı inkar edir? Yəni, belə bir məntiqsizlik var. Tibbi ədəbiyyatda yazılır ki, qızılca, difteriya və sairə xəstəliklərin profilaktikası üçün vaksinasiya mühümdür".

**Vaqif Qarayev israilli həmkarının iddialarına da cavab verdi:** "Həmin həkimin açıqlamalarını oxumuşam. Sual olunur ki, onda sən milyonlarla can alan epidemiyaları görməmisən? Sizcə, qızılcanın, difteriyanın və digər ağır xəstəliklərin qarşısı necə alındı? Təbii ki, dünya yalnız vaksinasiya yolu ilə bu xəstəliklərin qarşısını ala bildi. Sovet dövründə peyvənddən imtina qeyri-mümkün idi. İndi Rusiyada da eynilə bizdəki olan vəziyyətdir. Belə ki, vaksini Rusiyanın özü istehsal edir, lakin əhalisi peyvənddən qorxur. Türkiyəli həkimləri isə bu haqda danışarkən təəccüblə bildirirlər ki, Sovet ittifaqında olmuş ölkələr nədənsə peyvənddən imtina edir".

Həkim qeyd edib ki, peyvəndlərin tərkibində uşaq orqanizminə ziyan verə biləcək arqumentlərin olduğu bu gün qədər sübuta yetirilməyib: "İsrailli həkim autizmi önə çəkir. Autizm son 20 ildə aktivləşib. Onun hələ dəqiq autizm olduğunu deyə bilmərik. Bu, qarışıq bir patologiyadır. Bəzən deyirlər ki, bu xəstəlik peyvəndin nəticəsidir. Onda sual olunur ki, niyə bəs peyvəndsiz uşaqlarda autizm var?"

**"Peyvənd nə zaman olmaz" sualımıza həkim belə cavab verdi:** "Bu mütləqdir ki, peyvənd yalnız sağlam uşağa vurulsun. Anadangəlmə mərkəzi sinir sistemi xəstəliyi, orqanik, müalicəsi çox çətin olan xəstəlik varsa, onda peyvənd ya müvəqqəti, ya da daimi vurulmur. Əgər uşağın vəziyyəti düzələrsə, onda peyvənd edilir. Peyvəndin fəsadları bu ola bilər: uşağın hərarəti müvəqqəti qalxa bilər, oyaq və ya narahat ola və ya iynə vurulan yerdə şişkinlik, qızartı da ola bilər, lakin zamanla bütün bunların hamısı keçərlidir. Əgər peyvənddən sonra uşaqda qıcolmalar yaranarsa, bu çox ciddi ağırlaşmadır. Amma bu, o demək deyil ki, peyvənd bütün uşaqlarda qıcolmalara gətirə bilər. Sadəcə, bu, orqanizmin fərd olaraq peyvəndə verdiyi reaksiyasıdır. Ona görə də həkim ilk vaxtlarda uşaqlara diqqətlə yanaşmalıdır. Əhali niyə peyvənddən imtina edir? Çünki sosial şəbəkələrdə, bəzi mətbuat orqanlarında peyvəndin əleyhinə məlumatlar yayılır, yazılır. Deyərdim ki, bunu pul qarşılığında edirlər. Təbabəti az qalıb biznes poliqonuna çevirsinlər".

**❑ Xalidə Gəray, "Yeni Müsavat"**

# Bayıl yamacında son durum: "...Adamı vahimə basır"

## Sakin: "Camaat 2 aya gedib kosmosdan nümunə gətirib rəy verir, Bayılda isə..."

**Bayıl yamacında sürüşmə sahəsində aktivlik müşahidə olunmasa da təhlükə hələ də qalmaqdadır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin məlumatına görə, son günlər yağıntılara baxmayaraq Bayıl yamacında vəziyyət sabitdir.**

Martın 13-də Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov sürüşmə ilə əlaqədar köçürülmüş şəxslərlə görüş keçirib. Başçı bildirib ki, 98 evdə yaşayanların kirayə mənzillərdə yerləşdirilməsi üçün onlara aylıq kirayə pulu verilib. Evləri tam uçan vətəndaşlara isə birdəfəlik kompensasiya ödəniləcək.

**Başçı bildirib ki, hazırda ərazidə mütəxəssislər tərəfindən araşdırma və yoxlamalar aparılır. Onların rəyi nəticəsində yamacdakı evlərin gələcək taleyi ilə bağlı qərar veriləcək:**

"Mən Nazirlər Kabinetində olmuşam, bu məsələ ona görə uzanır ki, sakinlərin istəklərini mümkün qədər tam yerinə yetirək. Bəziləriniz kompensasiyanın azlığından şikayət etdi, mən də bunu Nazirlər Kabinetinə çatdırdım. Məbləğin artırılması üçün sənədlərin qəbulu dayandırılıb, müzakirə aparılır. Qəzalı vəziyyətdə olan 6 bina üçün veriləcək kompensasiya hazırdır. Amma onlara veriləcək məbləğin artırılması məsələsinə də baxılır ki, pul alan sakin gedib özünə yeni ev ala bilsin",- deyə E.Əzizov bildirib.

"Yeni Müsavat"a danışan **sakin Elməddin Muradlı** bildirib ki, başçı ilə görüşə əvvəlcədən adı siyahıya yazılan sakinlər gediblər: "Yəni hamı görüşə qatılmayıb. Deyiblər ki, qiymətləndirmə işinə yenidən baxılacaq. Ancaq məsələ burasındadır ki, daha öncə qiymətləndirmə aparılmayıb. Hava yağışlı olduğu üçün camaat təhlükədən ehtiyat edib, bu günlərdə evlərinə gəlmirlər. Ancaq sürüşmə zonasından bir qədər kənarda yaşayan sakinlər kirayə pulu ilə qane olmayıb, indi də evlərində yaşamaqda davam edirlər. Ərazidə polis postları da götürülməyib.



Əhali deyir ki, bu günlərdə yağış yağsa da sürüşmədə aktivləşmə olmadı. Ona görə də hesab edirlər ki, təhlükə qabardılan səviyyədə deyil. Ola bilər ki, su açıq qalıb, hansısa torpaq qatını yuyub aparıb. Təhlükəsizlik üçün insanları köçürmək lazım idi. Lakin artıq hadisənin baş verməsinin 2 ayı tamam olur. Bu günlər ərzində isə hələ deyirlər ki, təhlillər aparılır, rəy veriləcək. Camaat 2 aya gedib kosmosdan nümunə gətirib, rəy verir. Bu nə çətin şeydir ki, uzadıb, insanları qışın günü didərgin salırlar. Necə hay-küy saldılarsa camaat tələsik evindən çıxanda bütün əşyalarına zərər dəydi. Tutaq ki, rəy verildi ki, geri qayıdın. Bəs bu zərəri kim hesablayacaq? İcra hakimiyyətinin nümayəndələri bizim evə baxanda dedilər ki, bura sürüşə bilməz. Çünki lay daşların üzərində tikilib. Ancaq bir tərəfdən də çıxmamızı tələb etdilər".

**E.Muradlı bildirib ki, icra hakimiyyətinin açıqladığı 98 ailənin bir hissəsi kirayə pulu ilə razılaşmayıb, evini tərk etmir:** "Onlar bu ailələri də səsləndirdikləri rəqəmin içərisinə daxil ediblər. Məhəllədə gəzəndə də görürəm ki, köçməyənlərin maşınları həyətlərində, özləri də evlərindədir. Kommunal xətlərlə bağlı isə başçının çıxışından sonra belə bir məlumat yayıldı ki, elektrik enerjisinin verilməsi bərpa oluna bilər. Ancaq hələ bu barədə heç bir xəbər yoxdur. İşığı versələr yenə də insanlar evlərində rahat otura bilərlər. Qazın verilməsi isə danışılmır. Hadisədən sonra böyük ərazinin kommunal xətlərini kəsmişdilər. Halbuki onların heç sürüşmə zonasına aidiyyətləri yox idi. Artıq onların xətlərini bərpa ediblər. Ola bilər ki, bizim məhəllədən də bəzi ərazilərə elektrikin verilişi bərpa olunsun. İnsanlar var ki, deyirlər ki, iki-üç paltar geyinib, gecə evimizdə yatırıq. Kirayə pulu az olduğu üçün götürmürlər".

**Sakin bildirib ki, sürüşmə hadisəsindən sonra bəzi evlərdən kommunal xidmətlərin işçiləri sayğacları çıxarıb, aparıblar:** "Təəssüf ki, "Azərqaz", "Azərsu"nun işçiləri hay-küyə salıb, bəzi adamların həyətindən sayğacları aparıblar. Özü də hadisə gecə vaxtı, camaatın evdə olmadığı ərəfədə baş verib. Hazırda ərazidə təxminən 20-30 evdə sayğac yoxdur. Rayonun başçısı deyir ki, hələ rəy veriləcək, alimlər işləyirlər. Ancaq bu qurumların işçiləri özbaşına hərəkət edib, sayğacları söküblər. Ona görə də deyirəm ki, sürüşmə olmasa belə insanlara dəyən maddi, mənəvi zərər ölçüyəgəlməzdir. Bayram günü ailəmizi bir araya gətirə bilmirik ki, tonqal qalayaq. Hərə bir tərəfdə didərgindir. Məhəlləyə girirsən, adamı vahimə basır".

**❑ Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018



## 200 nəfərə “adamları izləmək” fırıldağı gələn “haker” həbs edildi

**Daxili işlər orqanlarının əməkdaşları tərəfindən informasiya texnologiyalarından istifadə edilməklə törədilən kibercinayətlərlə mübarizə, onların qarşısının alınması və ifşa edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirilib.**

DİN-in mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə “İnstagram” sosial şəbəkəsində “xaker_telefon_izle” adlı səhifənin sahibinin vətəndaşların etibarından sui-istifadə edərək onları dələduzluq yolu aldatdığı və külli miqdarda pullarını mənimsədiyi barədə məlumat daxil olub.

Aparılan əməliyyat-texniki tədbirlər nəticəsində müəyyən edilib ki, həmin səhifədə insanlara pul müqabilində guya xüsusi kompüter proqramlarının köməkliyi ilə qarşı tərəfin xəbəri olmadan “mobil telefonun yönləndirilməsi”, “telefonda ön kameranın açılması” və bu üsulla telefon sahibinin gedəcəyi yerlər haqqında məlumatların əldə edilməsi kimi uydurma xidmətlər təklif olunur.

Keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində “xaker_telefon_izle” səhifəsinin Ağdam rayon sakini Nurlan İsmayılov adlı şəxs tərəfindən idarə olunduğu müəyyən edilib və o, saxlanılaraq məsuliyyətə cəlb edilib. Araşdırma zamanı müəyyən edilib ki, saxlanılan şəxs qarşı tərəfin şəxsi məlumatlarını əldə edəndən sonra öz adına poçt vasitəsilə 600 manat pul göndərilməsini istəyib. N.İsmayılov pulu əldə edən kimi həmin şəxsləri sosial şəbəkələrdə “qara sıyahı”ya ataraq onlarla əlaqələrini kəsib.

Saxlanılan şəxs bu üsulla 200 nəfərə yaxın insanı aldatdığını, həmçinin tələb etdiyi pulu verməyənləri ona göndərilən məlumatları yayacağı ilə də hədələyib. N.İsmayılov ifadəsində “İnstagram”da səhifəsinə müraciət edən insanlara yalan vədlər verdiyini və vətəndaşları dələduzluq yolu ilə aldadaraq pullarını ələ keçirdiyini etiraf edib. Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

Daxili İşlər Nazirliyi vətəndaşlara xəbərdarlıq edərək sosial şəbəkələrdən istifadə edən zaman bu tipli vədlər verərək insanları dələduzluq yolu aldadan və pullarını mənimsəyən, həmçinin müəyyən xidmətlər müqabilində şəxsi məlumatlar tələb edən səhifələrdən uzaq durmağı tövsiyə edir.

❑ **Musavat.com**

## Məktəb yollarının qarşısında heyvan kəsiminə nəzarət olunacaq

**Küçələrdə, yol kənarlarında səhər saatlarında, xüsusilə də uşaqların məktəblərə getdiyi zaman iri və xırda buynuzlu heyvanların kəsiminə nəzarət olunacaq. Virtualaz.org xəbər verir ki, bunu Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirib.**

Onun sözlərinə görə, heyvan mənşəli qidalar mütləq ekspertiza rəyi əsasında satılmalıdır: “Bəzi insanlar elə düşünür ki, hansısa heyvanın göz önündə kəsilməsi sağlamlıqdan xəbər verir. Bu, tamamilə yanlış düşüncədir. Çünki heyvan mənşəli qidalar üçün mütləq şəkildə ekspertiza rəyi lazımdır. Təbii ki, bu da əhalinin həyatını risk altına salan amillərin başlıca səbəbidir. İlk növbədə buna nəzarət lazımdır ”.

Agentlik sədri həmçinin bildirib ki, yaxın gələcəkdə iri depolara bağlı, eyni zamanda tez xarab olan məhsulların çatdırılması və qidalanma ilə bağlı digər vacib məsələlər üçün standartlar müəyyənləşdiriləcək.

Xatırladaq ki, virtualaz.org dəfələrlə yol kənarında, xüsusən azyaşlıların hər gün keçib getdiyi məktəb yollarının kənarında antisanitariya şəraitində heyvan kəsilmələri ilə bağlı problemə toxunub. Belə halların uşaqların psixologiyasına mənfi təsir edə biləcəyini gündəmə gətirib.

## Bakıda bankomatdan pul çıxaran şəxsi soydular

**Bakıda bankomatdan pul çıxaran şəxsin pulları əlindən alınıb. “Report”un xəbərinə görə, Xəzər rayon sakini İsax Behbudov hüquq-mühafizə orqanlarına müraciət edərək bildirib ki, bankomatdan pul çıxaran zaman naməlum şəxs onu arxadan vuraraq xəsarət yetirib, 600 manat pulunu və bankomat kartını götürərək hadisə yerindən qaçıb.**

Faktla bağlı araşdırma aparılır.

# Evdarlıq - lüks, yoxsa məşəqqət?

## Azərbaycanın evdar qadınları dünyadakı həmcinslərindən geri qalır - bir çox mənada...



**Bu gün Azərbaycanda ev qadınları ilə bağlı rəsmi statistika yoxdur. Amma ölkəmizdə adına qeyri-rəsmi şəkildə “evdar qadınlıq institutu” deyilən bir kateqoriya var. Təbii ki, bu, Azərbaycana xas bir hal deyil. Dünyanın bütün ölkələrində ailə institutunda bu cür bölgü həyata keçirilir.**

Amma Azərbaycanda durum necədir? Ümimiyyətlə, evdar qadınlıq ölkəmizdə bir qadının seçimidir, yoxsa zərurəti? Yeganə səbəb “uşaqlara baxan yoxdur” kimi arqumentdirmi?

### Evdar qadınlarla bağlı 10 həqiqət

Öncə “ev xanımlığının dünyanın ən çətin peşəsi olduğunun 10 sübutu” ilə bağlı arqumentləri yada salaq.

- Evdar xanımlara maaş ödənsəydi, bu maaş ən azı 2500 manat olmalıdır.

- Evdar qadınlar dünyanın ən çətin müdirinə sahibdilər. Bu müdir də özləridir. Onlar bir müddət sonra hər şeyin mükəmməl olmasına elə çalışırlar ki, atüstü gördükləri heç bir iş xoşlarına gəlmir.

- Üstəlik də təkbaşına çalışırlar. Onlar vaxtlarının çoxunu özləri ilə keçirirlər.

- Böyük bir ailənin yükünü öz çiyinlərində daşıyırlar desək, yanılmarıq. Həftəlik alış-veriş, təmizlik, yemək və bunun kimi yüzlərlə iş.

- İş saatları gözlərini açdıqları andan etibarən başlayır və yastığa başlarını qoyduqları an sonlanır.

- Yay tətili, qış tətili, bayram tətili... Bunların heç biri onların həyat tərzi üçün xarakterik deyil. Onların tətili ancaq evin kişisinin qrafikinə və işdən aldığı icazələrə görə planlanır. Təbii ki, evin kişisi icazə alanda ailəcə tətil planlaşdırırsa.

- Evdar qadınlıqla yanaşı, dünyada evdar kişilik də var. Bir çox kişi iş həyatında uğur və gəlir əldə edə bilməyəndə ailədə iş bölgüsü dəyişir.

- Bütün gün evin içində qaçaqaçda olanda atdıqları addım sizin heç cür gedə bilmədiyiniz idman salonundakı qaçış bandında atdığınız addımdan çoxdur. Həm də müxtəlif bəhanələr səsləndirərək, idman zalına getməmək və ya növbəti bazar ertəsinə qədər təxirə salmaq şansları yoxdur. Onlar hər gün bu idmanı etməyə məcburdular.

### Evdar qadınlıq + analıq = İşlər x 2

Bu işin ən çətin tərəfi isə başqalarına “Evdar qadınam” dediyiniz zaman eşitdiyiniz “Hmmm... Yəni, çalışmırsan” cümlələrini eşitməkdir. Əslində isə evdar qadınlıq evdən çalışılan peşədən heç nə ilə fərqlənmir.

### Azərbaycanda qadınlar işləmək istəmədiyi üçün evdar olur?

Azərbaycana gəlincə... Bir neçə il bundan öncə Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun bu mövzu ilə bağlı mediaya verdiyi müsahibə geniş rezonans doğurdu. Nazir bildirmişdi ki, ölkədə 890 min nəfər əmək qabiliyyəti qadın işləmir, heç işləmək də istəməyib evdar olmaq istəyirlər.

İqtisadçı Rövşən Ağayevin isə bu açıqlamaya cavab olaraq səsləndirdiyi arqumentlər evdar qadınlıq institutu ilə bağlı bir çox həqiqəti üzə çıxarmışdı. R.Ağayev müəllif yazısında bildirmişdi ki, doğurdanmı 1 milyon nəfərə yaxın iqtisadi fəal qadın işləməyib evdar olmağı üstün tutur, ləyaqətli əmək haqqına, əlverişi və insanların peşə-ixtisas səviyyəsinə uyğun iş yerləri var, amma yüz minlərlə insan bu iş yerlərini görməzdən gəlir? Özü də söhbət o ölkədən gedir ki, əhalinin hətta orta real gəlirləri belə insanların orta sinfə daxil olması üçün yetərli deyil: “Ümumiyyətlə rəsmi təbliğatdan belə aydın olur ki, cəmiyyətin əksər hissəsi ünvanlı sosial yardımın marığın yatıb və işləmək istəmir? Belə ailələrin olması istisna deyil, bəlkə ölkədə on minlərlə belə adam var, amma onları sayının yüzminlərlə olması mümkün deyil və belə iddialar absurddur...”

### Dünyada evdar qadınların nisbəti necədir?

Dünya təcrübəsinə də nəzər salaq. Son 20 il ərzində Britaniyada uşaqlarına qulluq edən “evdar atalar”ın sayı yüksələrək rekord həddə çatıb. Böyük Britaniya Milli Statistika İdarəsinin məlumatına görə, hazırda İngiltərədə evdə otu-rub uşaqlarına qulluq edən ataların sayı 229 min nəfər təşkil edir. Halbuki, 1993-cü ildə bu rəqəm 111 min idi. Bununla yanaşı, evdar xanımların sayı əvvəlki illərlə müqayisədə 45 min nəfər azalıb. Hazırda Britaniyada evdar xanımların sayı 2,04 milyona yaxındır. İngiltərədəki Atalıq İnstitutunun direktoru Adrian Berdjesin sözlərinə görə, indi ailədə xanımların kişilərlə müqayisədə bəzən onlardan da artıq qazancı olur. Buna görə də ailə büdcəsinə qənaət etmək baxımından kişilərin ev işləri ilə məşğul olması daha sərfəlidir.

1960-cı illərin sonlarında “evi dolandıran” qadınlar cəmi 4% idisə, 2000-ci ildə bu rəqəm 19%-ə yüksəlib. Tədqiqatçılar hesab edirlər ki, belə qadınların sayı bundan sonra da artacaq. Çünki hazırda 25% xanım əri ilə eyni qazanca malikdir və qarşıdakı dövrdə onların daha da “irəli getmələri” mümkündür...

İngiltərədə bir ailə jurnalının apardığı araşdırmaya görə, kişilərin 28%-i ev işlərini və ailə bazarlığını həyat yoldaşı ilə birlikdə edir. Amma qadınların yalnız 14%-i bunun doğru olduğunu deyib. Sözügedən araşdırmada kişilərin 18%-i kişi evdə yeməyi xanımı ilə birlikdə bişirdiyini deyib, amma qadınların yalnız 8%-i bunun doğru olduğunu bildirib.

Cəmi 50 il əvvəl İngiltərədə cəmiyyətin qınağına görə, qadınlar kişilərlə birlikdə işə gedib-gəlmirdilər. Qadının işi yalnız onun evi idi. O zaman ingilis kişiləri birmənalı olaraq ev işlərinin qadın tərəfindən həll edilməsini düşünürdü.

Amma 90-cı illərdən etibarən İngiltərədə kişilər ev işlərində xanımlarına kömək etməli olduqlarını fikirləşirlər. Xüsusilə qadınların böyük bir əksəriyyəti həm evdə, həm də işə getdikləri zaman işlədikləri üçün kişilərin itirdiyi enerjinin 2 misli qədər enerji itirirlər. Jurnalın gəldiyi qənaətə görə, buna baxmayaraq kişilərin böyük bir qismi bu ev işlərində xanımına kömək etməkdən qaçır.

Qeyd edək ki, bu, sadəcə İngiltərə cəmiyyəti üçün xarakterik deyil. Bütün Avropada son dövrlərdə həyata keçirilən gender proqramlarından sonra kişilərin hamısı ev işlərindən qaçırlar. İspaniya hakimiyyəti kişilərin ev işlərində xanımlarına kömək etmələri üçün reklama 780 min dollar xərc çəkib.

Amerikanın sosial-iqtisadi araşdırmalar institutunun apardığı araşdırmada isə qeyd olunub ki, evli kişilər subaylardan daha çox qazanırlar. Bu, ancaq o haldadır ki, evli kişilərin həyat yoldaşları evdə oturub, ailənin bütün yükünü öz üzərinə götürsünlər.

Bundan başqa, evdar xanımlıq çox məsrəfli peşədir. Yəni, bu peşəyə görə ən yüksək məvacib verilməlidir. Bundan başqa, evdar qadınların təhsilli olmaması ilə bağlı deyilənlər yanlışdır. Çünki evdar qadın eyni zamanda yaxşı aşpaz, bacarıqlı təmizlik işçisi, evin aurasını tənzimləyə bilən psixoloq olmalıdır. Onlar hər gün yeni nələrisə öyrənirlər.

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 59 (6948) 15 mart 2018

**Novruz bayramına artıq sayılı günlər qalıb. Hər kəs bu bayramda süfrəsinin bol çeşidli, bayramın adətlərini özündə əks etdirən məhsulun zəngin olmasına istəyir. Novruz süfrəsində "S" hərfi ilə başlayan yeddi növ xörək olmalıdır. Həmçinin süfrənin əsas bəzəyi səməni, şam, güzgü də yer alır. Bunların da hər birinin öz rəmzi mənaları var. Məsələn, şam - od, işıq deməkdir, güzgü isə aydınlıq rəmzidir. Səməni isə yaşıllığa, yaz fəslinin gəlişinə işarə edir. Süfrənin vazkeçilməzi, olmazsa olmazı şirniyyatları sırasında isə ilk yeri şəkərbura, paxlava tutur.**

# Bayram şirniyyatları sifarişi neçəyə başa gəlir?

## Alıcılar gün keçdikcə bahalaşan qiymətlərdən narazıdır...












Çoxları Novruz bayramını məhz şəkərbura-paxlavaya görə daha da sevir. Artıq çərşənbələrdən başlayaraq gəlin və qızlar bu şirniyyatların bişirilməsi üçün lazım olan ərzaq tədarükünə başlayır. Şəkərbura və paxlava hazırlanması olduqca əziyyətli bir proses olduğundan çoxları bunu ya alır, ya da sifarişlə bişirdirlər. Hətta bunun üçün sifarişlər artıq ilk çərşənbədən etibarən verilməyə başlayır. Biz də şəkərbura paxlava bişirtməyin neçəyə başa gələcəyini öyrənmək üçün bu işlə məşğul olan bir neçə şirniyyat mağazasında müşahidə apardıq. Demək olar ki, əksəriyyət şirniyyat mağazalarında şəkərbura, paxlava, badambura sifarişlə bişirtdirilməklə yanaşı, dənə ilə də satılır. Sifarişlə bişirilən fındıqlı paxlavanın kilosu 24 manat, qozla bişirilən isə 25 manata, şəkərburanın isə bir ədədi 80 qəpik və 1 manat 40 qəpik arasında satılırdı. Evdə də bunu xüsusi sifarişlə bişirən qadınlar var. Onlar isə şirniyyat mağazalarına nisbətən ucuz başa gəlir. 28 may metrosu yaxınlığında evində **şirniyyat bişirən Cəmilə Quliyeva** isə paxlavanın kilosunu 17 manata, şəkərburanın isə bir dənəsini 1 manata bişirdiyini dedi: "Kifayət qədər sifarişim var. Heç necə çatdıracağımı bilmirəm. Mənim bişirdiyim şəkərbura və paxlavanı alıb narazılıq edən hələ ki olmayıb. Mən onu kərə yağı ilə hazırlayıram. Bəzi insanlar var ki, necə gəldi, ucuz ərzaqlardan hazırlayırlar. Artıq 10 ilə yaxındır ki, hər Novruz bayramı öncəsi sifarişlə şəkərbura-paxlava hazırlayıram".

Mağazalarda isə qiymətlər nisbətən ucuz olsa da, onların keyfiyyəti istənilən səviyyədə deyildi. Mağazalarda isə hazırda paxlavanın kilosu 8 manat 20 qəpiyə, şəkərburanın bir dənəsi isə 80 qəpiyə satılır. Ancaq onların dadına baxdıqda içliyinin demək olar ki, yox dərəcəsində olduğunu, dadının isə turşumuş tamı verdiyini gördük. Satıcılar isə alıcıların kifayət qədər olduğunu, ancaq bayram gününə 1-2 gün qalmış qiymətlərinin nisbətən artacağını dedilər.

**Novruz bayramında şirniyyat yeməyi xoşlayanlar bir qədər diqqətli olmalıdır.** Çünki təkcə bir dənə şəkərbura yemək bir kalorili yemək yeməyə bərabərdir. Məsələn, bir boşqab yağlı ətli aşqarası ilə plov təqribən bir şəkərburanın kalorisi ilə ekvivalentidir. 1 şəkərbura 650 kaloridirsə, bir qab plovda da təqribən bu qədər kalori var.

Qeyd edək ki, Novruz süfrəsinin atributlarının da qiyməti bayram yaxınlaşdıqca, gün keçdikcə bahalaşır. Mağazaları, yol kənarlarını bəzəyən müxtəlif formalı səmənilər, rəngarəng şamlar göz oxşasa da, qiymətlərin ürək açan olduğunu demək çətindir. Satıcılar bildirirlər ki, səmənilər Bakı ətrafı qəsəbələrdəki istixanalarda yetişdirilir. Əvvəllər alıcıları az olsa da, çərşənbələrdə alıcı sayında artım müşahidə edildiyini dedilər. Səmənilər yumuru sadə, buta, ulduz və ürək formalarında satılır. Qiymətlərə gəlincə isə səmənilərin ölçüsünə, üzərindəki bəzəklərə görə dəyişir. Səmənilər 2-15 manat arasında dəyişir. Bir qarış böyümüş, sadə və kiçik ölçülü səmənilər 50 qəpik, 1 manat arasında da almaq mümkündür. Kiçik buta formalı səmənilər 6-8 manat arası, böyük butalar isə 10 manata təklif edilir. Satıcılar hər səmənidən onlara 40-50 qəpik pul qaldığını dedilər. Satıcı Elvin Lətifov deyir ki, səmənilər istixanalardan alırlar: "Səmənilər istixanalardan 50-60 qəpiyə alıb, üstünü müxtəlif quş fiqurları, gül və qırmızı lentlə bağlayıb 1-2 manata satırıq. Hər səmənidən bizə 20-50 qəpik arası pul qalır".

**Şamlara gəlincə isə rəngli yumurta formasında olan şamların bir dənəsi 1 manat 40 qəpiyə, səməni formasında olan kiçik şamlar 1 manat 80 qəpiyə, səməni formasındakı böyük şamlar isə 6-7 manata satılır. Kiçik bağlamada olan 6 ədəd balaca rəngli şamlar isə 80 qəpik idi. Nisbətən uzun tək rəngli şamlar 1-2 manat arasında satılırdı. Yumurta boyamaq üçün bəzəkli kağızlar 10-20 qəpik, qida boyaları isə 40-50 qəpik arasında satılırdı. Alıcılar qiymətlərin baha olmasından narazı idilər. Alıcı Şəhla Əliyeva səmənilərin baha olduğunu dedi:** "Səmənilər əslində 20-30 qəpiyə satılmalıdır. Çünki onun cücərdilməsi elə də əziyyətli deyil. Bir ovuc buğdanı tökürsən cücərir. Rayonlarda, kəndlərdə insanlar özləri səməni qoyurdu. İndi sanki hamı tənbəlləşib hazırını alır. Amma əslində onu özün evində cücərtməlisən ki, evin bərəkətli olsun".

**❑ Günel MANAFLI,**
**Fotolar müəllifindir,**
**"Yeni Müsavat"**

# Havanın qeyri-sabit keçməsi kənd təsərrüfatına ziyan vura bilərmi...



## "Fermer təsərrüfatlarını sığorta ilə təmin etmək lazımdır" - ekspert

**Son vaxtlar havaların qeyri-sabit keçməsi, Bakıda sulu qar, bölgələrdə isə qar yağması kənd təsərrüfatı üçün risklər yaratdı. Məlum olduğu kimi, aqrar sektorda bəzi məhsulların əkin, bəzi məhsulların isə gübrələnmə dövrüdür. Meyvəçilikdə isə çəyirdəkli meyvələr çiçəkləmək üzrədir. Bəs belə olan halda qeyri-sabit, yağıntılı hava şəraiti kənd təsərrüfatının ayrı-ayrı sahələrinə necə təsir edəcək?**

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **kənd təsərrüfatı eksperti Müslüm İbrahimov** vurğuladı ki, havaların kəskin dəyişməsi kənd təsərrüfatı üçün yaxşı bir hadisə deyil, müəyyən dərəcədə mənfi təsirləri ola bilər: "Ancaq Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyi arasında bir koordinasiya mövcuddur, Kənd Təsərrüfatı Nazirliyinin konsultasiya mərkəzləri fəaliyyət göstərir. Fermer təsərrüfatları və kənd təsərrüfatı məhsulları istehsalçılarına öncədən məlumat çatdırılır ki, havaların kəskin dəyişməsi gözlənilir. Əgər bu proses baş vermirsə, o zaman problem yaşana bilər. Kənd təsərrüfatı hava şəraitindən birbaşa asılı olan istehsal sahəsidir. O baxımdan fermer təsərrüfatlarının rentabelliyi birbaşa iqlim göstəricilərindən asılıdır. Əgər Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyi arasında koordinasiya zəif olarsa, təbii ki, müəyyən mənfi nəticələr proqnozlaşdırmaq olar".

**Ekspertin sözlərinə görə, burada ikinci vacib məqam, kənd təsərrüfatında sığorta sisteminin tətbiq olunmasıdır**: "Konkret məhsulların istehsalı ilə məşğul olan fermer təsərrüfatlarını sığorta ilə təmin etmək lazımdır. Əsasən dövlət tərəfindən prioritet elan olunan sahələr də sığortanın tətbiqinə ehtiyac var. Çəltikçilik, fındıqçılıq, taxılçılıq, pambıqçılıq və digər bitkilərin istehsalı hava şəraitinə və digər faktorlara qarşı sığortalanmalıdır.

Kənd təsərrüfatı riskli bir sahədir. Dünyanın istənilən ölkəsində hava şəraiti aqrar sektora mənfi təsir edə bilər. Çünki dünya qlobal iqlim dəyişikliyindən əziyyət çəkir. Bu isə beynəlxalq aləmdə ərzaq təhlükəsizliyi məsələsini daha da aktuallaşdırır".

**Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev** isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, hələlik hər hansı ciddi təsirdən söhbət getmir: "Hava şəraitinin bu cür dəyişməsi, yağıntının artması taxılçılıq üçün çox müsbət haldır. Bölgələrdə yağışların intensiv yağması xüsusilə dəmyə əkinçiliyi üçün çox əlverişlidir. Aran bölgəsində hazırda taxılın boruya çıxma, dağlıq bölgəsində isə kollanma fazasıdır. Fevral ayının sonundan taxıl sahələrinə gübrələr verilib, gübrələnmənin ardından yağıntının olması taxılçılıq üçün çox əlverişlidir. İkincisi, yazlıq bitkilər üçün bu çox əlverişlidir. Çünki torpaqda nəmliyin toplanmasına şərait yaradır.

Meyvəçiliyə gəldikdə isə hələ ki meyvə ağaclarının tam oyanma fazası deyil. Aran bölgələrində, xüsusilə də çəyirdəkli meyvələrin bəzilərində tumurcuqlanma, çiçəklənmə fazasının başlanğıcıdır. Kütləvi çiçəklənmə baş verməyindən hələlik elə bir mənfi təsiri yoxdur. Ümumilikdə götürdükdə əkinçilik üçün bu yağışların yağması çox əlverişlidir".

**❑ Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 59 (6948) 15 mart 2018



# İti təyyarəyə buraxmadılar deyə öldü

**Öz sahibi ilə "United Airlines"ə aid təyyarədə Hyustondan Nyu-Yorka uçan it təyyarənin baqaj hissəsində ölüb. İti ora yerləşdirməyi stüardessa tələb edib. Aviakampaniya bəyan edib ki, baş vermiş hadisənin məsuliyyətini öz üzərinə götürür. Bununla yanaşı, qeyd edib ki, heyvanları əl baqajlarının qoyulduğu yerdə yerləşdirmək olmaz.**

"Bu, baş verməməli olan faciəvi hadisə idi". Bunu da "United Airlines" şirkətində qeyd ediblər. Sərnişinlər isə qeyd ediblər ki, uçuş zamanı itin hürmə səslərini eşidiblər və onun ölümü barədə məlumatlı olmayıblar. Ta ki, təyyarə aeroporta enənə qədər. "United Airlines" şirkətində isə insidenti araşdırmağa və stüardessanı cəzalandırmağa söz veriblər.

Nəşr eyni zamanda açıqlayıb ki, 2017-ci ildə Amerika hava yollarında heyvanlarla bağlı 24 ölüm və yaralanma hadisəsi qeydə alınıb. Bu olaylardan 18-i "United Airlines" şirkəti ilə bağlı olub. Aviakampaniyada bəyan ediblər ki, bu heyvanlardan bəziləri təbii səbəblərdən, digərləri isə müəyyən zədələr nəticəsində ölüblər.

# Gəlin paltarında həbs olundu

**Amerikanın Arizona ştatında Amber Young adlı qadın evlənəcəyi gün saxlanıldı. 32 yaşındakı Young, toyuna gedərkən maşını ilə üç fərqli maşının daxil olduğu bir qəzaya qarışdı. Gəlin paltarı geyinən gənc qadın qəzadan sonra polislər tərəfindən içkili halda maşın sürdüyü ittihamı ilə qandallanaraq polis maşınına mindirildi. Bu günə qədər toy günü həbs edilən gəlinlər çox olub. 2013-cü ildə Rusiyada toy günü qonşusu ilə dalaşıb, onu yaralayan gənc bir qadın həbs edilmişdi. Kilsə mərasimində içəri daxil olan polislər gəlini qandallayaraq həbs etmişdilər. Qonşusunun xəstəxanada ondan şikayət etməsi nəticəsində qadın 5 il müddətinə azadlıqdan məhrum edilmişdi.**




# Uşaqların gözü qabağında tısbağaya küçük yedizdirdi

**Amerikada biologiya müəllimi əlavə məşğələ zamanı tısbağaya yemək üçün küçük verib. Bu barədə "The Mirror" nəşri xəbər verir. Robert Krosland Ayxado ştatındakı orta məktəbdə biologiyadan, 12-16 yaşlı uşaqlara dərs deyir. Dərsdən sonra keçirdiyi əlavə məşğələdə o, tısbağaya küçük yedizdirib. Valideynlərin dediyinə görə, it mutasiya ilə doğulub və bütün hallarda tez bir zamanda ölməsi gözlənilirdi. Qeyd edilir ki, müəllim daha öncə də ilanları dəniz donuzları ilə qidalandırırdı.**

Heyvan haqlarının qoruyucuları bu cür tədris metoduna qarşı çıxıblar. Heyvan haqları müdafiəçisi Cil Pariş isə deyib ki, uşaqların gözü qabağında məsum bir küçüyün qışqıraraq digər heyvan tərəfindən yeyilməsini nümayiş etdirmək sadəcə qəddarlıqdır. Bununla yanaşı, müəllimi müdafiə edənlər də olub. Onların arasında məktəbin keçmiş məzunları və məktəblilərin valideynləri olub. Keçmiş şagirdlər qeyd ediblər ki, Kroslanda həyatın tsikl olmasını nümayiş etdirib. Eks məzunlardan biri isə deyib ki, bu müəllim onun həyatı boyu tanıdığı ən yaradıcı müəllimdir.

Polis baş vermiş hadisəni araşdırır. Müəllimi isə müvəqqəti də olsa işdən kənarlaşdırıblar.



# Qızıl balıqları çaya buraxdı... 1 aya onları tutmağa məcburdur

**Niderland hakimiyyəti Venendal şəhər sakinindən çaya buraxdığı qızıl balıqları tutmağı tələb edib. Bu barədə lenta.ru saytı BBC News-a istinadən xəbər verir. Hans Van Manen adlı vətəndaşa bunun üçün cəmi bir ay vaxt verilib. Bundan sonra həmin çayda balıq tutmaqla dövlət qulluqçuları məşğul olacaq. 2016-cı ilin iyun ayında Venendaldakı şəhər kanalına 80 qızıl balıq buraxıb. O, iddia edir ki, bunu heyvanlara olan sevgisindən edib. Bundan başqa, kişi ümid edirdi ki, qızıl balıqlarla dolu kanal şəhərin görməli yerlərindən birinə çevriləcək. Yerli hakimiyyət orqanları isə iddia edirlər ki, bu hərəkət ölkənin flora və faunasının pozulmasına yönəlik addımdır. Van Manen təəssüflənir ki, onun bu cəhdi söylənən formada yekunlaşıb. O, kanala atdığı qızıl balıqları tutandan sonra onları satmağı planlaşdırır.**

Yanvar ayında isə Böyük Britaniya sakinini qızıl balığı diri-diri udduğu üçün həbs etmişdilər.




**QOÇ** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**BUĞA** - Bir qədər mistik anlamlı təqvim olduğunu nəzərə alın. Tanrıya zidd olan addımlardan yayının, yalnız savab işlər görün. Çalışın ki, dilinizdən yalnız xoş sözlər çıxsın, hamı sizi sevsin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**XƏRÇƏNG** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**ŞİR** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyin. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**QIZ** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**TƏRƏZİ** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ƏQRƏB** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**OXATAN** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün yaşlı xəstə və ya qohumlarınıza mütləq baş çəkin ki, savablarınız artsın.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şans qazanacaqsınız.

**SUTÖKƏN** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var. Tədbirli olun.

**BALIQLAR** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 9 yaşlı uşaq FFİ sindromuna görə yata bilmir



**9 yaşlı Çeril Dinqs yata bilmir. Həkimlərin dediklərinə görə, FFİ adlı sindroma tutulmuş Dinqsin xəstəliyi çox ağırdır. Hazırda dünyada yalnız 40 nəfərdə belə genetik xəstəlik var. Dinqs də ailəsində xəstəlik ucbatından anasını, babasını və əmisini itirib. FFİ xəstəsi olan insanlar yata bilmədikləri üçün bir müddət sonra qarabasmalar, hallüsinasiyalar görməyə başlayırlar. Xəstəliyin son mərhələsində isə onlar ağıllarını itirirlər. Ata və anadan birində FFİ sindromu varsa, övladda bu xəstəliyin yaranma ehtimalı 50 faizdir.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.